BAKIDA ESTONİYANIN SƏFİRLİYİ AÇILDI

Estoniyanın XİN başçısı Marqus Tsahknanın səfəri çərçivəsində əlaqələrin inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Azərbaycanla Estoniya arasında münasibətlərin dinamik şəkildə genişləndiyini deyən Prezident İlham Əliyev hökumət nümayəndələri arasında görüşlərin keçirilməsinin yaxşı nəticələr verəcəyinə ümidvarlığını bildirib, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafı baxımından roluna toxunub.

Dövlət başçısı Azərbaycan-Aİ münasibətlərinin də uğurla inkişaf etdiyini deyib. Prezident İlham Əliyev ölkələrimiz arasında tərəfdaşlığın irəli aparılması üçün məsələləri müzakirə etmək baxımından Estoniyanın xarici işlər nazirinin səfərinin uğurlu olacağına ümidvarlığını ifadə edib.

SƏHİFƏ 2-də



‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

28 NOYABR ŞƏNBƏ 2026 № 45 (4296) Qiyməti - 60 qəpik www.kaspi.az





12 MİLYARD DOLLARLIQ TİCARƏT HƏDƏFİ

Azərbaycan Avropanın üçüncü ən böyük iqtisadiyyatına sahib olan İtaliya ilə iqtisadi əlaqələri dərinləşdirir. Qarşılıqlı ticarət dövriyyəsinin 12 milyard dollara çatacağı proqnozlaşdırılır.

SƏHİFƏ 4-də



YERLİ BİZNES ÜÇÜN ƏLAVƏ GƏLİR MƏNBƏYİ

Azərbaycanda rəqəmsal səyyahlar üçün viza proseduru sadələşdirilir. Ekspertlər hesab edirlər ki, gələn ildən atılacaq bu addım ölkəyə xarici valyuta axınının artmasına və iqtisadi fəallığın güclənməsinə şərait yarada bilər.

SƏHİFƏ 8-də



XƏZƏR SAHİLİNDƏ YENİ REALLIQ

Son illərdə Xəzərin geri çəkilməsi ilə sahil xətti boyunca yaranan minlərlə hektar quru sahələrin gələcək taleyi maraq doğurur. Ekspertlər bu məsələdə gözləməyi və istifadənin məhdudlaşdırılmasını tövsiyə edirlər.

SƏHİFƏ 9-da

DÜNYA NƏHƏNGLƏRİNDƏN AZƏRBAYCAN VURĞUSU

AZƏRBAYCANIN GEOSİYASİ ÇƏKİSİ ARTIR



Dünyanın müxtəlif qütblərini və regionlarını təmsil edən bir çox ölkələr Bakının idarə etdiyi gəminin sərnişinləri olmağa can atırlar. Çünki Azərbaycanın ali rəhbərliyinin uzaqgörən siyasəti bu gəminin mənzil başına təhlükəsiz və vaxtında çatmasına zəmanət verən ən mühüm amildir.

ARTAN MARAĞI ŞƏRTLƏNDİRƏN AMİL

Son vaxtlar Azərbaycan amili müxtəlif qütblər üçün özünü daha qabarıq şəkildə büruzə verməyə başlayıb. Strateji mövqeyimiz, şimal-cənub, şərq-qərb marşrutlarında əsas söz sahibi olmağımız Bakıya artan marağı şərtləndirən əsas amildir.

ORTA GÜC STATUSU REALLIĞA ÇEVRİLİR

Azərbaycan bu gün iqtisadi əlaqələr, tranzit bağlantılar, enerji təminatı, təhlükəsizlik sahəsində mühüm rola malik orta güc statusuna malikdir. Dünyanın müxtəlif qütblərini və regionlarını təmsil edən bir çox ölkələr isə rəsmi Bakının idarə etdiyi gəminin sərnişinləri olmağa can atırlar.

SƏHİFƏ 3-də

Beynəlxalq təcrübənin Azərbaycana transferi

XARİCDƏ TƏHSİL, ÖLKƏDƏ KARYERA



Dövlət Proqramı əsasında xaricdə təhsil alan gənclərin ölkəyə qayıtması, əmək bazarına uyğunlaşması və ixtisaslarına uyğun iş tapması müxtəlif amillərdən asılıdır. Son illər onların məşğulluğu və peşəkar potensiallarından səmərəli istifadə olunması ətrafında müzakirələr aktuallaşıb.

SƏHİFƏ 7-də



MƏRKƏZİ ASİYADAN HİND OKEANINA

Qazaxıstan, Özbəkistan, Əfqanıstan və Pakistanı birləşdirməsi nəzərdə tutulan Mərkəzi Asiya - Cənubi Asiya dəmir yolu layihəsi diqqət çəkir. Layihənin reallaşması Mərkəzi Asiyanın dənizə çıxışı olmayan ölkələri üçün yeni imkanlar yaradır.

SƏHİFƏ 5-də



QATARLAR DOLU, TƏLƏBAT YÜKSƏK

Bu ilin mayından fəaliyyətə başlayan Bakı-Tbilisi marşrutu üzrə reyslərin sayı ikiqat artırılsa da, biletlərə yüksək tələbat davam edir. Xüsusilə həftəsonları və bayram ərəfəsində sərnişinlər bilet əldə etməkdə çətinlik çəkirlər.

SƏHİFƏ 6-da



TEATR İNSANIN VİCDANINA TOXUNMAQ SƏNƏTİDİR

Mingəçevir Dram Teatrının rejissoru Əlisahib Cəlili: “Sənətdə paytaxt və bölgə anlayışları arasında sərhəd qoymağın tərəfdarı deyiləm. Çünki istedadın da, yaradıcılığın da konkret coğrafiyası yoxdur”.

SƏHİFƏ 15-də



Ağdərə, Xocalı və Xocavəndə növbəti köç

SƏHİFƏ 2-də



Sənədsiz evlərlə bağlı növbəti təklif

SƏHİFƏ 10-də



Güclü görünənlərin səssiz mübarizəsi

SƏHİFƏ 12-də



Fond ləğv edilir, güzəştlər qalır

SƏHİFƏ 13-də



10 illik həsrətin sonu

SƏHİFƏ 16-da

Kaspi ÜÇ ƏSRİN QƏZETİ



Ağdərə, Xocalı və Xocavəndə növbəti köç

Xocalı və Ağdərə rayonlarının kəndlərinə növbəti köç prosesi həyata keçirilib, sakinlərə açarlar təqdim edilib.

Mərasimdə Azərbaycan Prezidentinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəliyinin, eləcə də Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları iştirak ediblər.

Xocavənd şəhərinə və Quzeyxırman kəndinə yola salınan növbəti köç karvanı da məntəqəyə çatıb, sakinlərə açarlar təqdim edilib. Kəndə köçürülən ailələr müasir tələblərə cavab verən evlərdə məskunlaşıblar.

ANAMA-nın əməkdaşları sakinlərə mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verib. Tanımadıqları naməlum əşyalardan və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələrini tövsiyə ediblər.

Qeyd edək ki, bu mərhələdə Xocavənd şəhərinə yeddi ailə (30 nəfər), Xocavəndin Quzeyxırman kəndinə isə 17 ailə (71 nəfər) köçürülüb.

Bu mərhələdə Ağdərənin Vəngli kəndinə 10 ailə (42 nəfər), Çıldıran kəndinə 15 ailə (49 nəfər), Kolatağ kəndinə iki ailə (altı nəfər), Heyvalı kəndinə bir ailə (bir nəfər), Xocalının Badara kəndinə dörd ailə (yeddi nəfər), Xanyurdu kəndinə doqquz ailə (32 nəfər), Xanabad kəndinə səkkiz ailə (33 nəfər) köçürülüb.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

BAKIDA ESTONİYANIN SƏFİRLİYİ AÇILDI

Azərbaycanla Estoniya arasında münasibətlər dinamik şəkildə genişlənir. Estoniyanın xarici işlər naziri Marqus Tsahknanın Azərbaycana səfəri çərçivəsində əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.



Estoniyanın xarici işlər naziri Marqus Tsahkna Azərbaycana səfər edib. Səfər çərçivəsində bu ölkənin Bakıdakı səfirliyinin açılışı mərasimi keçirilib.

PREZİDENT İLHAM ƏLİYEVLƏ GÖRÜŞ

Marqus Tsahknanı Prezident İlham Əliyev də qəbul edib. Azərbaycanla Estoniya arasında münasibətlərin dinamik şəkildə genişləndiyini deyən Prezident İlham Əliyev hökumət nümayəndələri arasında görüşlərin keçirilməsinin yaxşı nəticələr verəcəyinə ümidvarlığını bildirib, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafı baxımından roluna toxunub və əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb.

Dövlət başçısı Azərbaycan-Avropa İttifaqı münasibətlərinin də uğurla inkişaf etdiyini deyib, bu il Avropa İttifaqı rəhbərliyinin ölkəmizə səfərlərini və Dublin Sammiti çərçivəsində keçirilmiş görüşləri xatırladıb.

Prezident İlham Əliyev ölkələrimiz arasında tərəfdaşlığın irəli aparılması üçün məsələləri müzakirə etmək baxımından Estoniyanın xarici işlər nazirinin səfərinin uğurlu olacağına ümidvarlığını ifadə edib.

Qəbula görə minnətdarlığını bildirən Marqus Tsahkna Azərbaycanın sürətli inkişafının şəxsən şahidi olduğunu deyib, ölkəmizin regionda önəmli rol oynadığını vurğulayıb.

AZƏRBAYCAN-ESTONİYA MÜNASİBƏTLƏRİNDƏ MÜHÜM MƏRHƏLƏ

Səfər çərçivəsində Bakıda Estoniya səfirliyinin rəsmi açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov da iştirak edib. Nazirlər səfirliyin açılmasını Azərbaycan-Estoniya münasibətlərində mühüm mərhələ adlandırıblar.

Daha sonra nazirlər arasında ikitərəfli müzakirələr aparılıb. Tərəflər mətbuata bəyanatla çıxış ediblər.

SƏKKİZ SƏNƏD ÜZƏRİNDƏ İŞ APARILIR

Ceyhun Bayramov Marqus Tshakna ilə brifinqdə deyib ki, Azərbaycan və Estoniya arasında 16 sənəd mövcuddur, səkkiz sənəd üzərində isə iş aparılır, yaxın gələcəkdə onların da müsbət inkişafı olacaq. O, iki ölkə arasında ticarət dövriyyəsinin daha da arta biləcəyini vurğulayıb: "Azərbaycandan Estoniyaya ötən il 32 milyon ABŞ dolları həcmində, Estoniyadan Azərbaycana isə 25 milyon investisiya yatırılıb".

XİN başçısı həmkarı ilə danışıqlarda iki ölkə arasında beynəlxalq platformalarda qarşılıqlı dəstək barədə fikir mübadiləsi aparıldığını da vurğulayıb: "Estoniya Avropa İttifaqının çox önəmli və fəal üzvüdür. Görüşümüz zamanı Avropa İttifaqı-Azərbaycan münasibətləri də müzakirə edildi, müxtəlif ölçülü danışıqlar və dialoqlar barədə fikir mübadiləsi aparıldı. Üzv ölkə olaraq, Estoniya Avropa İttifaqı ilə Azərbaycanın münasibətlərinə töhfə verə bilər və təbii ki, bizim də bu çərçivədə öz gözləntilərimiz var".



C.Bayramov ikitərəfli əlaqələrin digər istiqamətlərinə toxunaraq Azərbaycandan Estoniyada 200 tələbənin təhsil aldığını, həmçinin ötən il bu ölkədən Azərbaycana 2000-ə yaxın turistin gəldiyini bildirib.

Ticarət dəhlizləri, energetika və investisiyalar

Öz növbəsində Marqus Tsahkna qeyd edib ki, Estoniya ticarət, energetika, investisiyalar və rəqəmsallaşma sahələrində Azərbaycanla və bütövlükdə regionla əməkdaşlığın genişləndirilməsində maraqlıdır: "Biz Azərbaycanı energetika sahəsində təcrübə qazanmaq, həmçinin qlobal ticarət və iqtisadiyyatdakı dəyişikliklərlə əlaqədar yaranan yeni perspektivləri araşdırmaq üçün böyük bir fürsət kimi görürük. Söhbət xüsusilə Şərq - Qərb Orta Dəhlizindən gedir".

Nazirin sözlərinə görə, Estoniya Avropa İttifaqının üzvü kimi qlobal məsələlərin müzakirəsində fəal iştirak edir və müxtəlif tərəfdaşlarla iqtisadi əlaqələrin inkişafında maraqlıdır. "Avropa İttifaqı Hindistan, Mərkəzi Amerika ölkələri və digər tərəfdaşlarla münasibətləri, o cümlədən azad ticarət sahəsində əlaqələri fəal şəkildə inkişaf etdirir. Bu proseslər qlobal iqtisadiyyata təsir göstərir. Biz həm Azərbaycan, həm də bütövlükdə regionla əməkdaşlığı genişləndirmək istəyirik. Bizim üçün ticarət dəhlizləri, energetika və investisiyalar vacibdir. Estoniya Aİ-yə üzvlüyün verdiyi imkanlardan istifadə etməyə hazırdır. Biz həm ikitərəfli səviyyədə, həm də Avropa İttifaqı çərçivəsində əməkdaşlıqda maraqlıyıq", - nazir qeyd edib.

AZƏRBAYCANIN GEOSİYASİ ÇƏKİSİ ARTIR

Dünyanın müxtəlif qütblərini və regionlarını təmsil edən bir çox ölkələr Bakının idarə etdiyi gəminin sərnişinləri olmağa can atırlar. Çünki Azərbaycanın ali rəhbərliyinin uzaqgörən siyasəti bu gəminin mənzil başına təhlükəsiz və vaxtında çatmasına zəmanət verən ən mühüm amildir.





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Son illərdə beynəlxalq səviyyədə yaşanan gərginliklər, müharibələr fonunda dünyanın iqtisadi və siyasi düzəni ciddi transformasiyaya məruz qalır. Bu dəyişikliklər nəticəsində bir sıra regionların strateji əhəmiyyəti artır. Xüsusilə beynəlxalq əhəmiyyətli ticarət bağlantıları, logistika və tranzit xətləri yenidən formalaşdırılır. Təhlükəsizlik, davamlılıq və etibarlılıq prinsipləri bu məsələdə daha böyük önəm daşımağa başlayır.

BAKIYA ARTAN MARAĞI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Beynəlxalq konfiqurasiyanın yenidən şəkilləndirilməsində Azərbaycan amili müxtəlif qütblər üçün özünü daha qabarıq şəkildə büruzə verməyə başlayıb. Strateji mövqeyimiz, şimal-cənub, şərq-qərb marşrutlarında əsas söz sahibi olmağımız, dünyanın müxtəlif qütbləri ilə uzun illərin təcrübəsinə əsaslanan etibarlı və dayanıqlı tərəfdaşlıq münasibətlərinin qurulması, həyata keçirdiyimiz meqalayihələr rəsmi Bakıya artan marağı şərtləndirən əsas amillərdir.

İNTENSİVLƏŞƏN SƏFƏRLƏR

Məhz bunun nəticəsidir ki, Bakı ilə diplomatik təmaslar intensivləşib. Son günlərdə istər regional, istərsə də daha geniş coğrafiyaya təmsil olunan dövlətlərin rəsmi nümayəndələrinin Azərbaycana səfərləri artıb. Bu görüşlər nəticəsində aparılan müzakirələrin mahiyyətinə nəzər saldıqda bütün tərəflərin istəklərində ikitərəfli əməkdaşlığın genişləndirilməsi ilə yanaşı, Azərbaycanın beynəlxalq daşımalar, enerji təhlükəsizliyi və qarşılıqlı investisiyalar sahəsindəki imkanlarından yararlanmaq məqsədləri açıq şəkildə görünür.

ABŞ-DƏN GƏLƏN QONAQ

Məsələn, noyabrın 22-də Prezident İlham Əliyev ABŞ-nin daxili təhlükəsizlik naziri Markveyn Mullini qəbul edib. Görüşdə Bakı-Vaşinqton münasibətlərinin mövcud durumundan razılıq ifadə olunmaqla yanaşı, regional sülh gündəliyi, Orta Dəhlizin əsas seqmentlərindən biri olan Zəngəzur dəhlizi - TRIPP layihəsinin əhəmiyyətinə də toxunulub. Bu dəhlizin tam şəkildə işə düşməsinin Azərbaycanla Ermənistan, eyni zamanda, regionlar arasında bağlantıların və iqtisadi-ticari əlaqələrin inkişafına töhfə verəcəyi vurğulanıb. Səfəri maraqlı edən məqam Ermənistan ərazisində TRIPP layihəsinin başlandığının rəsmən elan edilməsi ilə eyni vaxta təsadüf etməsidir.

AVROPANIN İKİ NƏHƏNGİNDƏN AZƏRBAYCAN VURĞUSU

Bir müddət əvvəl Avropanın iki böyük iqtisadiyyat nəhəngi, Almaniya və İtaliyanın xarici işlər nazirləri Yohan David Vadeful və Antonio Tayani də ayrı-ayrılıqda Bakıya səfər etdilər. Prezident İlham Əliyevlə görüşlərdə bir daha Azərbaycanın Avropa üçün strateji əhəmiyyəti vurğulandı. Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin Brüssel üçün strateji istiqamətlərdən biri olduğu qeyd edildi. Bundan əlavə, həm Almaniya, həm də İtaliya Cənubi Qafqazda əsas tərəfdaşlarının məhz Bakı olduğunu bəyan etdilər. Bu bəyanat bölgəmizdə yaradılan yeni reallıqların dünyanın ən güclü dövlətləri tərəfindən qəbul olunmasının əyani sübutu kimi dəyərləndirilir.

Litva ilə imzalanan Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə

Bakıya təşrif buyuran digər bir qonaq - Litvanın xarici işlər naziri Kestutis Budrisin də azərbaycanlı tərəfdaşları ilə apardığı müzakirələr diqqət çəkdi. Qeyd edək ki, Litva 2027-ci il yanvarın 1-dən Avropa İttifaqı Şurasına sədrlik edəcək. Səfər məhz bu baxımdan mühüm əhəmiyyəti ilə seçildi. Qarşıdakı bir il ərzində Avropa İttifaqı-Azərbaycan münasibətlərini məhz Litva kurasiya edəcək. Kestutis Budris səfər çərçivəsində mətbuata açıqlamasında bildirib ki, Azərbaycan Mərkəzi Asiya ilə Aİ-ni birləşdirən, yüklərin Avropaya daşınmasını təmin edən və ittifaqın enerji təchizatı mənbələrinin şaxələndirilməsinə töhfə verən əsas ölkədir. Bu açıqlamadan da göründüyü kimi, Aİ-nin Şərq strategiyasında Azərbaycan çox mühüm strateji əhəmiyyətə malikdir. Kestutis Budrisin Bakı ziyarəti zamanı Azərbaycanla Litva arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə də imzalanıb. Bu addım Azərbaycan-Litva münasibətlərində mühüm mərhələ olmaqla, ikitərəfli əməkdaşlığın gücləndirilməsi və siyasi, iqtisadi, ticarət, enerji, nəqliyyat, bağlantılar və qarşılıqlı maraq doğuran digər sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi üçün yeni çərçivə yaradır.

Region ölkələri də pay almaq istəyir

Bakının təşəbbüskarı və əsas söz sahiblərindən biri olduğu beynəlxalq əhəmiyyətli strateji halqada region ölkələri də yaxından iştirak etmək və yeni reallıqlardan pay almaq istəyir. Bu sırada uzun illər Azərbaycanla qurduğu strateji tərəfdaşlığın bəhrəsini görən Gürcüstan ön plana çıxır. Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Maka Boçorişvilinin də bugünlərdə Azərbaycana reallaşan səfərində əsas müzakirə mövzularından biri məhz Orta Dəhliz, tranzit və logistika sahəsində əməkdaşlıq olub. Bakı-Tbilisi əməkdaşlığında maraqlı məqam odur ki, bu gün Gürcüstanın Avropa və ABŞ ilə münasibətlərində soyuqluq yaşanır. Tbilisi bu istiqamətdə Azərbaycanın sahib olduğu imkanlardan yararlanmaq üçün səy göstərir. Elə TRIPP layihəsi ilə bağlı qarşı tərəfin açıqlamalarında bunu açıq şəkildə görmək mümkündür. Maka Boçorişvili bildirib ki, regional nəqliyyat əlaqəliliyinin gücləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edən TRIPP təşəbbüsü vacib layihədir.

YATIRIM ÜÇÜN ÜZ TUTANLAR

Bu gün Azərbaycanın beynəlxalq miqyasda diplomatik və iqtisadi fəallığını şərtləndirən mühüm amillərdən biri də investisiya imkanlarının genişlənməsidir. Bakı özünün maliyyə imkanlarından istifadə edərək bir çox dövlətlərin iqtisadiyyatına çoxmilyonlu sərmayələr yatırır. Monteneqronun Baş naziri Miloyko Spayiçin noyabrın 24-də Bakıya gəlişini diqqət mərkəzinə salan əsas amillərdən biri də məhz budur. Prezident İlham Əliyevlə görüşündə Baş nazir özü də etiraf edib ki, Azərbaycanın Monteneqroya yatırdığı böyük sərmayələr ölkə iqtisadiyyatına müsbət təsir göstərir. Görüşdə Azərbaycanın Monteneqroda həyata keçirdiyi investisiya layihələrinin gələcəkdə genişləndirilməsi üçün imkanların olduğu da qeyd edilib.

ORTA GÜC STATUSU

Göründüyü kimi, Azərbaycan bu gün həm regional, həm də beynəlxalq miqyasda iqtisadi əlaqələr, tranzit bağlantılar, enerji təminatı, təhlükəsizlik sahəsində mühüm rola malik orta güc statusuna malikdir. Dünyanın müxtəlif qütblərini və regionlarını təmsil edən bir çox ölkələr isə rəsmi Bakının idarə etdiyi gəminin sərnişinləri olmağa can atırlar. Çünki illərin təcrübəsi və Azərbaycanın ali rəhbərliyinin uzaqgörən siyasəti bu gəminin mənzil başına təhlükəsiz və vaxtında çatmasına zəmanət verən ən mühüm amildir.

12 MİLYARD DOLLARLIQ TİCARƏT HƏDƏFİ

Azərbaycan Avropanın üçüncü ən böyük iqtisadiyyatına sahib olan İtaliya ilə iqtisadi əlaqələri dərinləşdirir. Qarşılıqlı ticarət dövriyyəsinin 12 milyard dollara çatacağı proqnozlaşdırılır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycanın Avropanın üçüncü ən böyük iqtisadiyyatına sahib olan İtaliya ilə strateji tərəfdaşlığı yeni mərhələyə keçib. Artıq qarşılıqlı münasibətlərdə bir çox istiqamətlər üzrə mühüm ikitərəfli əlaqələr qurulub. Xüsusilə iqtisadiyyat sahəsində yeni istiqamətlər və hədəflər müəyyənləşdirilir.

İtaliyanın Nazirlər Şurası Sədrinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayaninin Azərbaycana səfəri bu baxımdan diqqət çəkir. Qeyd edək ki, A.Tayani Bakıya səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşüb, azərbaycanlı həmkarı Ceyhun Bayramovla bir araya gəlib. Görüşlərdə dövlətlər arasında strateji tərəfdaşlığın əhəmiyyəti bir daha vurğulanıb, iqtisadi sahədə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı siyasi iradənin mövcudluğu qeyd edilib.

Antonio Tayani səfər çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov ilə də görüşüb. Tərəflər Azərbaycan və İtaliya arasında iqtisadi tərəfdaşlığın inkişaf perspektivlərini, ticarət və investisiya əlaqələrinin genişləndirilməsini, sənaye, enerji, nəqliyyat-logistika və innovasiya sahələrində əməkdaşlıq imkanlarını müzakirə ediblər.

İŞ DÜNYASI BİR ARAYA GƏLDİ

Səfər çərçivəsində iki ölkənin iş adamlarını bir araya gətirən Azərbaycan-İtaliya biznes forumu da keçirilib. Forumda səsləndirilən fikirlər, qarşıya qoyulan konkret hədəflər və imzalanan sazişlər Bakı-Roma iqtisadi münasibətlərinin yeni müstəviyə keçdiyini göstərir. Forumda 200-dən çox şirkətin nümayəndələri iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, Azərbaycan İtaliya ilə ticarət dövriyyəsinin 12 milyard ABŞ dollarından artıq olacağını proqnozlaşdırır. İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğunu qeyd edən nazir bu göstəricinin ilin ilk doqquz ayında artıq 9 milyard ABŞ dollarını ötdüyünü bildirib.

Öz növbəsində Antonio Tayani qeyd edib ki, İtaliya şirkətləri Azərbaycana tikinti, maşınqayırma, dəmir yolu infrastrukturu, energetika və müdafiə sənayesi sahələrində ən yüksək səviyyəli mühəndislik imkanları və texnologiyalar təklif edə bilər. Onun sözlərinə görə, İtaliya və Azərbaycan Afrikada və dünyanın digər regionlarında kritik vacib xammal sahəsində birgə müəssisələr yaratmaq niyyətindədir.

Xatırladaq ki, Azərbaycan İtaliyanın enerji təhlükəsizliyində çox mühüm strateji rola malikdir. Ölkəmizin Avropaya ixrac etdiyi neft və qazın böyük hissəsinin alıcısı məhz İtaliyadır.



YENİ İKİTƏRƏFLİ SAZİŞİN İMZALANMASI GÖZLƏNİLİR

Qeyd edək ki, hazırda Azərbaycanda İtaliyanın 130-a yaxın şirkəti fəaliyyət göstərir. Onlar əsasən sənaye, tikinti, enerji, kənd təsərrüfatı, nəqliyyat, ticarət, xidmət və digər sahələrdə fokuslanıblar. Qarşılıqlı investisiyalarda Azərbaycan da mühüm paya malikdir. Belə ki, Azərbaycan Dövlət Neft Fondu (ARDNF) İtaliya ərazisində 402 MVt ümumi gücə malik günəş enerjisi portfelinə sahibdir. Bundan əlavə, FSI və "Azura Capital" ilə partnyor əlaqələri vasitəsilə səhiyyə, rəqəmsal texnologiyalar və maliyyə xidmətləri, habelə sənaye sektorlarında çalışan İtaliyanın qabaqcıl yerli şirkətlərini və ailə bizneslərini dəstəkləyir. Fondun İtaliyanın öncül özəl şirkətlərindən hesab olunan, yüksəksürətli dəmir yolu operatoru "Italo"ya da investisiyası var. ARDNF-in investisiya portfelinin 4%-i İtaliyadadır. İnvestisiyanın ümumi dəyəri 2,8 milyard ABŞ dolları təşkil edir.

Bu ilin may ayında SOCAR-ın "İtaliya Petroli" şirkətində nəzarət payı əldə etməsi ölkəmizin İtaliya iqtisadiyyatında uzunmüddətli investor kimi iştirakını gücləndirib.

Qarşılıqlı iqtisadi-ticari münasibətlərin davamlı və sabitliyini təmin etmək üçün müqavilə-hüquq bazasının möhkəmləndirilməsi də əsas hədəflərdəndir. Bu məqsədlə yaxın vaxtlarda "Sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" yeni ikitərəfli sazişin imzalanması gözlənilir.

İTALİYA ŞİRKƏTLƏRİNİN ÖLKƏMİZƏ ARTAN MARAĞI

İtaliya-Azərbaycan iqtisadi əməkdaşlığı çoxspektrliyi ilə də seçilir. İtaliya şirkətləri tək energetika yox, digər strateji layihələr, həmçinin sosial-iqtisadi infrastruktur layihələrinə maraq göstərirlər.

"RINA" şirkətinin Avropanın enerji sektorunda kommersiya idarəçiliyi üzrə direktoru Beatriçe Kostantsinin sözlərinə görə, Azərbaycan sadəcə nəqliyyat marşrutu deyil, həm də dəmir yolları, limanlar, logistika, energetika və investisiyaları birləşdirən mürəkkəb bir sistem olan Orta Dəhlizin transformasiyasında strateji rol oynayır.

"IRD Engineering" şirkəti Gəncənin su təchizatı və tullantı sularının axıdılması obyektlərinin layihələndirilməsi, tikintisinə nəzarət üzrə xidmətlərin göstərilməsinə dair yeni müqavilə imzalayıb. Orta Dəhlizin bir hissəsi olan M2 avtomobil yolunun Gəncə istiqamətindəki sahəsinin modernləşdirilməsi şirkətin layihələrindən biridir.

"Webuild" şirkətinin Şərqi Avropa, Balkanlar və MDB ölkələri üzrə biznesin inkişafı meneceri Andrea Tulli bəyan edib ki, onlar "Bakı Metropoliteni" QSC-nin inkişafına yönəlmiş layihələrin həyata keçirilməsində maraqlıdırlar.

"Iveco" şirkətlər qrupunun Beynəlxalq biznesə dəstək şöbəsinin rəhbəri Andrea Çommi qeyd edib ki, "Iveco Group" Azərbaycanın Qarabağ regionunda, o cümlədən elektrik mobilliyi sahəsində fəaliyyətini genişləndirməyə hazırdır.

"Hitachi Rail" şirkəti də nəqliyyat infrastrukturunun inkişafı və nəqliyyat əlaqəliliyinin artırılması sahəsində Azərbaycanla uzunmüddətli əməkdaşlıqda maraqlıdır.



YENİ ANLAŞMA MEMORANDUMU İMZALANIB

Qeyd edək ki, biznes-forum çərçivəsində Azərbaycan və İtaliya arasında kritik xammal sahəsində üçüncü ölkələrlə birgə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Bundan əlavə, Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə İtaliyanın "Leonardo S.p.A." şirkəti arasında yüksək məhsuldarlıqlı hesablama sistemləri və süni intellekt sahəsində əməkdaşlığa dair, İtaliyanın "Cassa Depositi e Prestiti S.p.A." şirkəti ilə Azərbaycan Biznesin İnkişafı Fondu arasında biznes və investisiya əməkdaşlığının inkişafına dair, "Baku Steel Company" QSC, "Dismas Trading S.r.l." və "Edgar H. Greenham & Co. S.r.l." arasında yerli sənaye məhsullarının ixracının təşviqi üzrə, Azərbaycan Tikinti İstehsalçıları Assosiasiyası ilə "FINCO" şirkəti arasında tikinti və tikinti materialları sənayesi sahələrində əməkdaşlığın genişləndirilməsi barədə, "IVECO" və "Aztexim port" şirkətləri arasında ictimai nəqliyyat sektorunda əməkdaşlığın gücləndirilməsi üzrə, "SIMEST S.p.A." ilə İtaliya–Azərbaycan Ticarət Palatası arasında ticarət, investisiya və biznes əməkdaşlığının gücləndirilməsinə dair anlaşma memorandumları, həmçinin "Nort West Construction" MMC ilə "FALORNI TECH S.R.L." şirkəti arasında Qaradağ Şüşə Zavodunun modernləşdirilməsi üzrə müqavilə olmaqla yeddi sənəd mübadilə edilib.

MƏRKƏZİ ASİYADAN HİND OKEANINA

Qazaxıstan, Özbəkistan, Əfqanıstan və Pakistanı birləşdirməsi nəzərdə tutulan Mərkəzi Asiya - Cənubi Asiya dəmir yolu layihəsi xüsusi diqqət çəkir. Layihənin reallaşması Mərkəzi Asiyanın dənizə çıxışı olmayan ölkələri üçün yeni iqtisadi imkanlar yaradır.





AZƏR NURİYEV

Avrasiya məkanında nəqliyyat-kommunikasiya marşrutları uğrunda rəqabət yeni mərhələyə qədəm qoyur. Qlobal ticarət yollarının şaxələndirilməsi, alternativ logistika imkanlarının yaradılması və dəniz limanlarına daha əlverişli çıxışın təmin edilməsi dövlətlərin iqtisadi və geosiyasi prioritetləri sırasında xüsusi yer tutur. Bu baxımdan Qazaxıstan, Özbəkistan, Əfqanıstan və Pakistanı birləşdirməsi nəzərdə tutulan Mərkəzi Asiya - Cənubi Asiya (CASA) dəmir yolu layihəsi xüsusi diqqət çəkir. Layihənin reallaşması Mərkəzi Asiyanın dənizə çıxışı olmayan ölkələri üçün yeni iqtisadi imkanlar yaratmaqla yanaşı, regionun beynəlxalq nəqliyyat sistemində mövqelərini də əhəmiyyətli dərəcədə gücləndirə bilər.

YENİ NƏQLİYYAT DƏHLİZİNİN FORMALAŞMASI

Layihənin əsas məqsədi region ölkələrinin beynəlxalq bazarlara çıxış imkanlarını genişləndirmək, yükdaşımaların həcmini artırmaq və Pakistanın dəniz limanlarına alternativ quru nəqliyyat marşrutu formalaşdırmaqdır. 2026-cı il sentyabrın 30-da Qazaxıstan, Özbəkistan və Birləşmiş Ərəb Əmirliklərinin müvafiq qurumları CASA layihəsi üzrə əməkdaşlıq haqqında memorandum imzalayıblar. Razılaşmaya əsasən, tərəflər dəmir yolu infrastrukturunun yaradılmasının texniki-iqtisadi əsaslandırılmasını, maliyyələşmə imkanlarını və layihənin həyata keçirilməsi üçün zəruri şərtləri araşdıracaqlar. Bu sənəd layihənin praktiki inkişafı baxımından mühüm mərhələ hesab olunsa da, hələlik tikintinin başlanması barədə yekun qərar qəbul edilməyib. Bununla belə, Qazaxıstan və Özbəkistanın təşəbbüsə qoşulması, BƏƏ-nin isə investisiya və logistika təcrübəsi ilə prosesdə iştirak etməsi layihənin regional əhəmiyyətini artırır.

REGİON DÖVLƏTLƏRİNİN ƏSAS PROBLEMİ

Mərkəzi Asiya dövlətlərinin qarşılaşdığı əsas problemlərdən biri beynəlxalq dəniz nəqliyyatı sisteminə birbaşa çıxışın olmamasıdır. Xüsusilə Qazaxıstan və Özbəkistan üçün yeni cənub marşrutunun yaradılması iqtisadi baxımdan mühüm əhəmiyyət daşıyır. Alternativ yolların mövcudluğu nəqliyyat sisteminin dayanıqlılığını artırır, ayrı-ayrı marşrutlardan asılılığı azaldır və logistika xərclərinin optimallaşdırılmasına şərait yaradır. CASA layihəsinin reallaşması ilə Mərkəzi Asiya ölkələri Pakistanın Kəraçi, Qvadar və digər dəniz limanlarına çıxış əldə edə bilərlər.

Beləliklə, regionun istehsal və ixrac potensialının Hind okeanı istiqamətində genişləndirilməsi üçün yeni imkan yaranacaq. Qazaxıstan üçün bu marşrut taxıl, un, kənd təsərrüfatı məhsulları, sənaye malları və digər ixrac məhsullarının Cənubi Asiya bazarlarına daşınmasını asanlaşdıra bilər. Özbəkistan isə həm özünün, həm də qonşu dövlətlərin yüklərinin beynəlxalq bazarlara çatdırılmasında mühüm tranzit mövqe qazanacaq.



ƏFQANISTAN REGİONAL NƏQLİYYAT QOVŞAĞINA ÇEVRİLƏ BİLƏR

CASA layihəsinin ən mühüm xüsusiyyətlərindən biri marşrutun Əfqanıstan ərazisindən keçməsidir. Əfqanıstanın coğrafi mövqeyi ona regionun müxtəlif iqtisadi mərkəzlərini birləşdirmək üçün əlverişli üstünlük verir. Lakin bu potensialın reallaşması üçün nəqliyyat infrastrukturunun inkişafı, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi, təhlükəsizliyin təmin olunması və qonşu dövlətlərlə davamlı iqtisadi əməkdaşlığın qurulması vacibdir. Dəmir yolu xəttinin çəkilməsi Əfqanıstanda yeni iş yerlərinin yaradılmasına, yerli iqtisadi fəallığın artmasına, tranzit gəlirlərinin əldə edilməsinə və xarici investisiyaların cəlbinə şərait yarada bilər. Eyni zamanda, ölkənin regional iqtisadi sistemə inteqrasiyası siyasi və iqtisadi sabitliyin möhkəmlənməsinə də töhfə verəcək. Bununla belə, Əfqanıstan ərazisində təhlükəsizlik məsələləri, Pakistanla münasibətlər və sərhədlərdə yarana biləcək problemlər layihənin gələcəyinə birbaşa təsir göstərəcək amillərdir.

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN İŞTİRAKI

CASA layihəsində Birləşmiş Ərəb Əmirliklərinin iştirakı ayrıca diqqətə layiqdir. Çünki BƏƏ son illərdə beynəlxalq nəqliyyat, logistika, liman idarəçiliyi və infrastruktur investisiyaları sahəsində fəallığını artırır. Əbu-Dabinin layihəyə qoşulması Mərkəzi Asiya ilə Körfəz ölkələri arasında iqtisadi əlaqələrin genişləndirilməsi baxımından da əhəmiyyətlidir.

Burada əsas məsələ siyasi razılaşmaların konkret iqtisadi öhdəliklərə çevrilməsidir.

10 MİLYON TON YÜKDAŞIMA POTENSİALI

CASA layihəsinin iqtisadi perspektivlərini müəyyənləşdirən əsas göstəricilərdən biri mümkün yükdaşıma həcmidir. Qazaxıstan tərəfinin açıqlamalarında Mərkəzi Asiya-Əfqanıstan-Pakistan istiqamətində formalaşdırılması nəzərdə tutulan dəhlizin ildə 10 milyon tona qədər yük daşıya biləcəyi bildirilir. Bu göstərici layihənin regionun beynəlxalq ticarətində hansı miqyasda rol oynaya biləcəyini nümayiş etdirir. Lakin həmin rəqəm hazırkı daşınma həcmi deyil, nəzərdə tutulan dəhlizin perspektiv imkanlarına dair proqnozdur. Digər tərəfdən, dəmir yolunun iqtisadi səmərəliliyi yalnız onun texniki imkanlarından asılı olmayacaq. Sabit yük bazasının formalaşdırılması, vahid tranzit tariflərinin müəyyənləşdirilməsi, gömrük prosedurlarının uzlaşdırılması və sərhədlərdə fasiləsiz hərəkətin təmin olunması da həlledici əhəmiyyət daşıyacaq.

Beləliklə, CASA müxtəlif nəqliyyat istiqamətlərini bir-birinə qarşı qoymaqdan daha çox, onların tamamlayıcı şəkildə inkişafı üçün yeni imkan yaradır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

QATARLAR DOLU, TƏLƏBAT YÜKSƏK

Bakı-Tbilisi marşrutu üzrə reyslərin sayı ikiqat artırılsa da, biletlərə yüksək tələbat davam edir. Xüsusilə həftəsonları və bayram ərəfəsində sərnişinlər bilet əldə etməkdə çətinlik çəkirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Gediş-dönüş biletlərini eyni vaxtda almaq tələbi

Bakı-Tbilisi dəmir yolu marşrutu üzrə əlavə reyslərin istifadəyə verilməsinə baxmayaraq, biletlərə yüksək tələbat davam edir. Noyabrın 1-dən etibarən gündəlik qatarların sayı 2-dən 4-ə, sərnişin yerlərinin sayı isə 386-dan 564-ə çatdırılıb. Yeni qrafik sərnişinlərə gündüz və gecə səfərləri arasında seçim imkanı yaratsa da, qatarların tam doluluqla hərəkət etməsi bilet əlçatanlığı məsələsini aktuallaşdırır. Bəs reyslərin artırılması bilet tapmaq problemini nə dərəcədə həll edib və havaların soyuması bu istiqamətə sərnişin marağına təsir göstəribmi?

"SƏRNİŞİNLƏRİN PLANLARINA UYĞUN REYS SEÇMƏK İMKANLARI ARTIB"

Azərbaycan Dəmir Yolları QSC-dən (ADY) sorğumuza cavab olaraq bildirildi ki, qurum beynəlxalq istiqamətdə artan sərnişin tələbatının qarşılanması və səyahət imkanlarının genişləndirilməsi məqsədilə 1 noyabr 2026-cı il tarixindən Bakı-Tbilisi-Bakı marşrutu üzrə əlavə reyslərin icrasına başlayıb: "Sərnişinlər yeni reyslərə ilk gündən böyük maraq göstəriblər. Belə ki, noyabrın 1-də Bakıdan Tbilisiyə ilk gündüz reysi 100 faiz doluluqla yola düşüb. Əlavə reyslərin istifadəyə verilməsi sərnişinlər üçün səfər vaxtı, xidmət sinfi və qiymət baxımından daha geniş seçim imkanları yaradıb. Gündəlik reyslərin sayının 2-dən 4-ə çatdırılması nəticəsində sərnişin yerlərinin sayı 386-dan 564-ə yüksəlib. Bu, 50 faizə yaxın artım deməkdir. Daşıma imkanlarının genişləndirilməsi sərnişinlərin bilet əldə etmək və səfər planlarına uyğun reys seçmək imkanlarını artırıb. Eyni zamanda, əlavə reyslərdə standart sinfin istifadəyə verilməsi daha aşağı büdcəli səyahət imkanı yaradıb. Bakıdan Tbilisiyə minimum gediş haqqı hazırda 53,47 AZN təşkil edir".

Həmçinin bildirildi ki, hazırda 24 noyabr-24 dekabr tarixlərini əhatə edən dövr üçün biletlər satışdadır: "Əlavə reyslər üzrə biletlərin satışına oktyabrın 2-dən başlanılıb. Hazırda da qatarlar tam doluluqla hərəkət edir. Bakı-Tbilisi-Bakı marşrutu bərpa olunduqdan sonra tələbat yüksək olaraq qalır. Hazırda Gürcüstan-Azərbaycan istiqamətində tələbat Azərbaycan-Gürcüstan istiqaməti ilə müqayisədə daha yüksəkdir".

BİLET SATIŞINDA YENİLİK

ADY sərnişinlərin maraqlarının qorunması, bilet satışı prosesinin təkmilləşdirilməsi və mümkün sui-istifadə hallarının qarşısının alınması istiqamətində bir sıra yeniliklər tətbiq edib: "Belə ki, Bakı-Tbilisi-Bakı marşrutu üzrə onlayn bilet alışı zamanı ADY-nin rəsmi saytında və "ADY Mobile" tətbiqində qeydiyyatdan keçmiş Azərbaycan vətəndaşlarının şəxsi kabinet məlumatlarının "MyGov ID" vasitəsilə verifikasiyası tələb olunur. Xarici ölkə vətəndaşları üçün isə mobil telefon nömrəsinin birdəfəlik təsdiq kodu (OTP) vasitəsilə verifikasiyası həyata keçirilir. ADY bilet satışında hər hansı vasitəçi ilə əməkdaşlıq etmir".

Turizm məsələləri üzrə ekspert Əziz Şiriyevin sözlərinə görə, xəttə marağın yüksək olmasının səbəblərindən biri də hava nəqliyyatı biletlərinin çox vaxt əlçatan olmamasıdır: "Dəmir yolu ilə səfərin daha münasib qiymətə başa gəlməsi və Gürcüstanın qonşu ölkə olması sərnişin axınını artırır. Tələbatın çox olması səbəbindən reyslərin sayı ikiqat artırılıb. Bakı-Tbilisi qatarında Wi-Fi-ın işlək olması, sərnişinlərin rahatlığının təmin edilməsi və reyslərin daha tez-tez həyata keçirilməsi vacib məsələlərdəndir. Ən əsas istəklərimizdən biri isə sərnişinlərin gediş və dönüş biletlərini eyni vaxtda ala bilməsidir. Çünki gediş bileti əldə edib dönüş bileti tapa bilməyən sərnişinlər müəyyən çətinliklərlə qarşılaşırlar. Bəzən bu səbəbdən hava nəqliyyatından istifadə etməli, yaxud səfər etdikləri ölkədə əlavə müddət qalmalı olurlar. Bu da əlavə xərclərə səbəb olur".

Ə.Şiriyevin fikrincə, yaxın zamanda biletlərin 50 faizinin birtərəfli, digər 50 faizinin isə gediş-dönüş bileti kimi satışa çıxarılacağını gözləyirlər: "Həmçinin təklif etmişik ki, biletlərin satış müddəti uzadılsın və sərnişinlər iki-üç ay əvvəlcədən bilet ala bilsinlər. Bu məsələ ilə bağlı da iş aparılır. Bundan başqa, Bakıdan Tbilisiyə gələn qatarın hərəkət qrafiki Batumi istiqamətindəki qatarın çıxış vaxtına uyğunlaşdırılıb. Yaxın zamanda gediş-dönüş biletlərini eyni vaxtda almaq da mümkün olacaq".

"TƏTİL ƏRƏFƏSİNDƏ BİLETLƏRƏ TƏLƏBAT YÜKSƏK OLARAQ QALIR"



Turizmçi Rəhman Quliyev düşünür ki, yeni reyslərin istifadəyə verilməsi müəyyən mənada sərnişin axınının artmasına və bilet əlçatanlığının yaxşılaşmasına şərait yaradır. Bununla belə, xüsusilə həftəsonları, bayram günləri və tətil ərəfəsində biletlərə tələbat yüksək olaraq qalır. Bəzi sərnişinlər istədikləri tarixə bilet əldə etmək üçün səfərlərini əvvəlcədən planlaşdırmağa məcbur olurlar.

R.Quliyev bildirdi ki, havaların soyuması Tbilisiyə səfərlərə marağın kəskin azalması demək deyil: "Çünki Gürcüstan payız və qış aylarında da azərbaycanlı turistlər üçün cəlbedici istiqamətlərdən biri olaraq qalır. Xüsusilə Tbilisinin tarixi məkanları, restoranları, əyləncə obyektləri və qış turizmi imkanları turistlərin marağına səbəb olur. Digər tərəfdən, Yeni il və bayram tətili ərəfəsində bu istiqamətə səfərlərə marağın yenidən artacağını gözləmək olar. Hesab edirəm ki, Bakı-Tbilisi marşrutu mövsümdən asılı olmayaraq öz aktuallığını qoruyacaq. Əsas məsələ sərnişin tələbatına uyğun reyslərin təşkili, bilet əlçatanlığının təmin edilməsi və xidmət keyfiyyətinin davamlı şəkildə yaxşılaşdırılmasıdır".

XARİCDƏ TƏHSİL, ÖLKƏDƏ KARYERA



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Dövlət Proqramı əsasında xaricdə təhsil alan gənclərin ölkəyə qayıtması, əmək bazarına uyğunlaşması və ixtisaslarına uyğun iş tapması müxtəlif amillərdən asılıdır. Son illər onların məşğulluğu və peşəkar potensiallarından səmərəli istifadə olunması ətrafında müzakirələr aktuallaşıb.



Xaricdə təhsil almaq gənclərə beynəlxalq təcrübə qazanmaq, peşəkar bilik və bacarıqlarını inkişaf etdirmək üçün geniş imkanlar yaradır. Xaricdə təhsillə bağlı Dövlət Proqramının əsas məqsədlərindən biri də nüfuzlu universitetlərdə təhsil alan gənclərin qazandıqları bilik və təcrübəni ölkəmizin inkişafına yönəltməsidir. Bununla belə, məzunların ölkəyə qayıtması, əmək bazarına uyğunlaşması və ixtisaslarına uyğun iş tapması müxtəlif amillərdən asılıdır. Son illər onların məşğulluğu və peşəkar potensiallarından səmərəli istifadə olunması ətrafında müzakirələr də aktuallaşıb.

Bəs Dövlət Proqramı məzunları ölkəyə qayıtdıqdan sonra hansı imkanlarla qarşılaşırlar? Xaricdə qazandıqları bilik və təcrübəni yerli əmək bazarında nə dərəcədə reallaşdıra bilirlər?

"MƏZUNLARIN BÖYÜK ƏKSƏRİYYƏTİ ÖLKƏYƏ QAYIDIB"

Dövlət Proqramı İdarəetmə Qrupundan (DPİQ) "Kaspi" qəzetinə bildirilib ki, indiyədək Dövlət Proqramı çərçivəsində təhsilini başa vuran məzunların ümumi sayı 738 nəfərdir. Təhsilini növbəti pillədə davam etdirənlər istisna olmaqla, digər məzunların hamısı Azərbaycana qayıdıb.

Məlumata görə, məzunların təxminən 70 faizi artıq işlə təmin olunub. Onlar dövlət qurumlarında, özəl sektorda və Azərbaycanda fəaliyyət göstərən beynəlxalq şirkətlərdə çalışırlar. Əsas fəaliyyət sahələri maliyyə, enerji, təhsil, informasiya texnologiyaları, dövlət idarəçiliyi, audit və konsaltinqdir. İşlə təmin olunmayan məzunların bir qismi müddətli həqiqi hərbi xidmətdədir, digərləri isə təhsilini yenicə başa vuraraq iş axtarır.

DPİQ-in məlumatına əsasən, məzunların əksəriyyəti öz ixtisası üzrə fəaliyyət göstərir. Qurumdan bildirilib ki, Dövlət Proqramı çərçivəsində ixtisas seçimi ölkənin prioritet inkişaf istiqamətləri və əmək bazarının tələbləri nəzərə alınmaqla aparılır. Bəzi məzunlar isə təhsil aldıqları ixtisasdan fərqli, lakin əlaqəli sahələrdə çalışırlar. DPİQ bunu onların analitik düşüncə, idarəetmə və digər transferolunan bacarıqlarından fərqli istiqamətlərdə istifadə etməsi və əmək bazarına çevik uyğunlaşması ilə əlaqələndirir. Məzunların məşğulluğuna dəstək məqsədilə karyera sərgiləri təşkil olunur, işəgötürənlərlə əlaqələr qurulur, vakansiyalar barədə məlumat verilir və CV-ləri uyğun qurumlara təqdim edilir.

"Xaricdə təhsil almaq yüksək əməkhaqqı ilə təmin olunmaq demək deyil"

Təhsil eksperti Elvin Bədirli hesab edir ki, xaricdə təhsil üzrə Dövlət Proqramının əsas məqsədi yüksək ixtisaslı milli kadr potensialının formalaşdırılmasıdır. Onun sözlərinə görə, xaricdə təhsil almış gənclərin dövlət idarəçiliyində, özəl sektorda, maliyyə, informasiya texnologiyaları, mühəndislik və təhsil sahələrində fəaliyyət göstərməsi bu siyasətin müsbət nəticələrindəndir: "Əmək bazarına inteqrasiya hər bir məzun üçün eyni sürətlə baş vermir. Burada ixtisasın xüsusiyyətləri, əmək bazarının tələbləri, namizədin fərdi bacarıqları və peşəkar hazırlığı mühüm rol oynayır. Ayrı-ayrı çətinlikləri ümumilikdə proqramın nəticələrinə şamil etmək doğru olmazdı. Azərbaycanda formalaşan yeni iqtisadi və texnoloji mühit beynəlxalq təcrübəyə malik gənclər üçün əlavə imkanlar yaradır. Xüsusilə rəqəmsal transformasiya, innovasiya, maliyyə və müasir idarəetmə sahələrində belə mütəxəssislərin bilik və bacarıqlarına ehtiyac artır. Qarşıdakı dövrdə əsas diqqət məzunların əmək bazarına keçidinin sürətləndirilməsinə və potensiallarından maksimum istifadə olunmasına yönəldilməlidir".

Ekspert narazılıqların səbəblərini yalnız bir tərəflə əlaqələndirməyin düzgün olmadığını düşünür. Onun fikrincə, həm məzunların gözləntiləri, həm işəgötürənlərin yanaşması, həm də əmək bazarının imkanları nəzərə alınmalıdır: "Xaricdə nüfuzlu universitetdə təhsil almaq mühüm üstünlük olsa da, bu, avtomatik olaraq yüksək vəzifə və əməkhaqqı ilə təmin olunmaq demək deyil. Bəzən gənclərin karyera gözləntiləri ilə praktiki təcrübələri arasında fərq yaranır. Digər tərəfdən, bəzi müəssisələrdə namizədlərin potensialının düzgün qiymətləndirilməməsi və seçim meyarlarının kifayət qədər şəffaf olmaması da narazılıqlara səbəb ola bilər. Dar ixtisaslaşma tələb edən sahələrdə uyğun vakansiyaların məhdudluğu da bəzi məzunların fərqli istiqamətlərdə çalışmasına gətirib çıxarır. Əsas məsələ onlara xüsusi imtiyazlar verilməsi deyil, potensiallarının ədalətli qiymətləndirilməsi və peşəkar imkanlarına uyğun sahələrdə fəaliyyət göstərmələrinə şərait yaradılmasıdır".

Beynəlxalq təcrübənin Azərbaycana transferi

E. Bədirli beynəlxalq təhsil və təcrübənin əmək bazarında mühüm üstünlüklər yaratdığını bildirir. Onun sözlərinə görə, xaricdə təhsil alan gənclər yalnız diplom və xarici dil bilikləri qazanmır, həm də fərqli elmi yanaşmalar, müasir idarəetmə modelləri və yeni texnologiyalarla tanış olurlar. Bu təcrübə onların problemlərin həllinə alternativ yanaşmasına və yeniliklərə daha çevik uyğunlaşmasına kömək edir: "Bankçılıq, informasiya texnologiyaları, enerji, mühəndislik və idarəetmə sahələrində beynəlxalq təcrübəyə malik mütəxəssislərin biliklərindən istifadə üçün geniş imkanlar var. Belə mütəxəssislər çalışdıqları təşkilatlara yeni iş üsulları, müasir yanaşmalar və beynəlxalq əməkdaşlıq imkanları qazandıra bilirlər. Bu baxımdan onların ölkəyə qayıtması beynəlxalq bilik və təcrübənin Azərbaycana transferi deməkdir".

XARİCDƏ QALMAQ İSTƏYİNİN SƏBƏBLƏRİ

Ekspert bildirir ki, məzunların karyera seçimlərinə əməkhaqqı, peşəkar inkişaf imkanları, elmi-tədqiqat mühiti, texnoloji infrastruktur və beynəlxalq layihələrdə iştirak perspektivləri təsir göstərir. Xüsusilə yüksək texnologiyalar, fundamental elmlər və innovativ tədqiqatlar sahəsində ixtisaslaşan gənclər üçün müasir laboratoriyalar, tədqiqat mərkəzləri və beynəlxalq elmi şəbəkələr mühüm əhəmiyyət daşıyır: "Dövlət Proqramı ilə xaricdə təhsil alan bəzi gənclərin karyeralarını orada qurmaq istəməsinin səbəblərindən biri əmək bazarına ilk addımlarını təhsil aldıqları ölkədə atmalarıdır. Universitetdə oxuduqları müddətdə təcrübə proqramlarına qatılır, şirkətlərin layihələrində iştirak edir, öz sahələri üzrə əlaqələr qururlar. Bəzən həmin şirkətlər onlara məzun olmamış iş təklif edirlər. Artıq tanıdıqları komandada işləmək imkanı bu qərara təsir göstərir. Əməkhaqqı da önəmli amildir, lakin məsələni yalnız maaş fərqi ilə izah etmək doğru olmaz. Gənclər çalışacaqları komandanı, işin məzmununu və gələcək inkişaf imkanlarını da nəzərə alırlar. Xaricdə bir müddət işləyib təcrübə qazanmaq istəyini Azərbaycana qayıtmaq niyyətinin olmaması kimi qiymətləndirməzdim. Gənc beynəlxalq komandada çalışaraq layihələrin necə qurulduğunu, işin necə təşkil edildiyini öyrənə və sonradan həmin təcrübəni Azərbaycanda tətbiq edə bilər".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

YERLİ BİZNES ÜÇÜN ƏLAVƏ GƏLİR MƏNBƏYİ

Azərbaycanda rəqəmsal səyyahlar üçün viza proseduru sadələşdirilir. Ekspertlər hesab edirlər ki, gələn ildən atılacaq bu addım ölkəyə xarici valyuta axınının artmasına və iqtisadi fəallığın güclənməsinə şərait yarada bilər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycanda xarici ölkələrdən gəlir əldə edən və distant çalışan rəqəmsal səyyahlar üçün viza prosedurunun sadələşdirilməsi təklif olunur. Milli Məclisdə müzakirəyə çıxarılan qanun layihəsinə əsasən, bu şəxslər işgüzar səfər vizası alarkən onları dəvət edən tərəfin vəsatətini və dəvətin səbəbini təsdiq edən sənədi təqdim etməli olmayacaqlar. Dünyada 40 milyondan çox rəqəmsal səyyahın olduğu bildirilən bir vaxtda bu təşəbbüs ölkəmizin xarici mütəxəssislər üçün cəlbediciliyini artırmaq, turizm və xidmət sektoruna əlavə gəlir axınını təşviq etmək baxımından diqqət çəkir. Dəyişikliyin 2027-ci il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulur.

Bəs yeni qayda ölkə turizminin inkişafına və iqtisadi fəallığın artmasına necə təsir edəcək?

VALYUTA AXINI VƏ İQTİSADİ FƏALLIĞA DƏSTƏK

Turizmçi Günel Şıxıyeva hesab edir ki, rəqəmsal səyyahların gəlməsi ölkəyə xarici valyuta axınının artmasına və iqtisadi fəallığın güclənməsinə şərait yarada bilər: "Rəqəmsal səyyahlar üçün viza prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi Azərbaycanın xarici mütəxəssislər üçün cəlbediciliyini artıra bilər. Bu addım ölkənin regional texnologiya mərkəzi kimi mövqeyinin möhkəmlənməsinə də töhfə olar. Rəqəmsal səyyahlar ölkəmizdə qaldıqları müddətdə otel, restoran, nəqliyyat və digər xidmətlərdən istifadə edirlər. Bu isə yerli biznes üçün əlavə gəlir mənbəyi yaradır. Eyni zamanda, onların ölkəmizdə olması beynəlxalq təcrübə və bilik mübadiləsinin genişlənməsinə, yerli şirkətlərlə əməkdaşlıq əlaqələrinin qurulmasına imkan verə bilər".

SÜRƏTLİ İNTERNET, YAŞAYIŞ İMKANLARI, RAHAT BANK XİDMƏTLƏRİ

Turizmçinin fikrincə, bu sahənin inkişafı üçün hüquqi və inzibati məsələlərin də aydın şəkildə tənzimlənməsi vacibdir: "Xüsusilə ölkədə qanuni qalma müddəti, fəaliyyət statusu, vergi rezidentliyi, xarici gəlirlərin vergiyə cəlb olunması və ikiqat vergitutma məsələləri dəqiq müəyyənləşdirilməlidir. Viza almaq avtomatik olaraq vergi güzəşti və ya azadolması demək deyil. Bu baxımdan, rəqəmsal səyyahların hüquqi statusu və vergi öhdəlikləri ilə bağlı aydın qaydaların müəyyən edilməsi mühüm əhəmiyyət daşıyır". G.Şıxıyeva hesab edir ki, Azərbaycanın bu istiqamətdə rəqabət qabiliyyətini artırmaq üçün sürətli internet, əlçatan yaşayış imkanları, kovorkinq mərkəzləri, rahat bank xidmətləri və sadə elektron müraciət sistemi inkişaf etdirilməlidir: "Əsas çətinliklər gəlirlərin və iş fəaliyyətinin yoxlanılması, vergi öhdəliklərinin müəyyənləşdirilməsi və miqrasiya qaydalarının düzgün tətbiqi ilə bağlı ola bilər. Rəqəmsal səyyahlar adi turistlərdən səfərin məqsədinə görə fərqlənirlər. Onlar Azərbaycanda olarkən peşəkar fəaliyyətlərini məsafədən davam etdirirlər. Bu, onların avtomatik olaraq Azərbaycanda işə düzəlməsi demək deyil. Buna görə də onların ayrıca kateqoriya kimi işgüzar viza mexanizminə daxil edilməsi həmin fəaliyyətin hüquqi çərçivəsinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətlidir".



"Aydın hüquqi mexanizmlər yaradılmalıdır"

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının maarifləndirmə və dəstək şöbəsinin rəhbəri Rəhman Quliyevin fikrincə, bu şəxslərin Azərbaycana gəlməsi ölkəmizin beynəlxalq turizm imicinin güclənməsinə, xidmət sektorunun inkişafına və xarici gəlirlərin artmasına müsbət təsir göstərə bilər: "İşgüzar səfər vizasının alınması qaydalarının sadələşdirilməsi xarici mütəxəssislərin ölkəmizə marağını artıra bilər. Viza prosedurlarının daha çevik və şəffaf olması ölkəmizi digər regional istiqamətlərlə müqayisədə daha cəlbedici edə bilər. Bununla belə, qaydaların sadələşdirilməsi ilə yanaşı, rəqəmsal səyyahların fəaliyyət xüsusiyyətlərini nəzərə alan aydın hüquqi mexanizmlərin yaradılması da vacibdir". Turizmçi hesab edir ki, rəqəmsal səyyahlar ölkəmizdə yaşadıqları müddətdə hotellərdən, kirayə mənzillərdən, restoranlardan, nəqliyyat və digər xidmətlərdən istifadə edərək yerli iqtisadiyyata töhfə verə bilərlər: "Onların ölkədə uzunmüddətli qalması turizm gəlirlərinin mövsümdən asılılığını azalda və texnologiya sektorunda bilik mübadiləsini gücləndirə bilər. Xüsusilə informasiya texnologiyaları, rəqəmsal marketinq, turizm və konsaltinq sahələrində yerli mütəxəssislər üçün yeni əməkdaşlıq imkanları yarana bilər".

"Ayrıca viza kateqoriyasının yaradılmasına ehtiyac var"

İqtisadçı-ekspert Elşən Bağırzadə hesab edir ki, rəqəmsal səyyahların ölkəyə cəlb olunması, ilk növbədə, iqtisadiyyata əlavə vəsait axını baxımından əhəmiyyətlidir: "Xarici şirkətlərə və müştərilərə məsafədən işləyən mütəxəssislər gəlirlərini xaricdən əldə etsələr də, Azərbaycanda yaşadıqları müddətdə mənzil kirayəsi, ictimai iaşə, nəqliyyat, istirahət və digər xidmətlərə pul xərcləyirlər. Bu isə yerli biznes üçün əlavə gəlir və məşğulluq imkanları deməkdir. Bundan əlavə, onların beynəlxalq təcrübəsi, bilikləri və peşəkar əlaqələri ölkənin innovasiya mühitinin inkişafına töhfə verə bilər".

Ekspert hesab edir ki, viza prosedurlarının sadələşdirilməsi xarici mütəxəssislərin ölkəmizə marağını artıran amillərdən biri ola bilər: "Viza güzəştləri digər əlverişli şərtlərlə tamamlanmalıdır. Rəqəmsal səyyahların hüquqi statusu, ölkədə qalma müddəti və vergi öhdəlikləri aydın şəkildə müəyyənləşdirilməlidir. Xaricdən əldə edilən gəlirlərin vergiyə cəlb olunması, vergi rezidentliyi və ikiqat vergitutmanın qarşısının alınması ilə bağlı qaydaların şəffaf olması ölkənin cəlbediciliyinə birbaşa təsir göstərə bilər. Bununla yanaşı, rəqəmsal səyyahların ənənəvi işgüzar səfər edən şəxslərdən fərqli xüsusiyyətləri hüquqi tənzimləmədə nəzərə alınmalıdır. Azərbaycanda onların xarici şirkətlərə işləyərək uzun müddət yaşamasını əhatə edən ayrıca viza kateqoriyasının yaradılması gələcəkdə daha aydın hüquqi çərçivənin formalaşmasına imkan verə bilər".


Günel Şıxıyeva


Elşən Bağırzadə

XƏZƏR SAHİLİNDƏ YENİ REALLIQ

Xəzərin geri çəkilməsi ilə sahil xətti boyunca yaranan minlərlə hektar quru sahələrin gələcək taleyi maraq doğurur. Ekspertlər bu məsələdə gözləməyi və istifadənin məhdudlaşdırılmasını tövsiyə edirlər.

SEVİNC ABBASOVA

Xəzər dənizinin geri çəkilməsi nəticəsində sahilboyu ərazilərdə yüzlərlə metr enində yeni torpaq sahələri üzə çıxıb. Bəzi ərazilərdə dənizin mövcud sahil xətti ilə faktiki su təmas xətti arasındakı məsafə 800 metrə çatır. Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyindəki "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" publik hüquqi şəxsinin İdarə Heyətinin sədr müavini Fərid Cəfərovun açıqlamasına görə, geriçəkilmə nəticəsində üzə çıxan həmin ərazilər hazırda da Xəzər dənizinin akvatoriyasına aid dövlət mülkiyyətində olan və istifadəsi qadağan edilən sahələrdir. Onun sözlərinə görə, bu ərazilərin hüquqi statusunun və istifadə vəziyyətinin müəyyənləşdirilməsi üçün aidiyyəti dövlət qurumları ilə birgə araşdırmalar aparılacaq.

Dənizin geri çəkilməsinin davam etməsi isə sahilboyu ərazilərin gələcək taleyi, ekoloji təhlükəsizlik və torpaqdan istifadə məsələlərini yenidən gündəmə gətirir. Bəs, dənizin geri çəkilməsi nəticəsində üzə çıxan ərazilərlə bağlı hansı tədbirlər görülməlidir? Bu torpaqların gələcəkdə istifadəsi hansı prinsiplər əsasında tənzimlənməlidir?

"EYNİ SƏHVİ TƏKRARLAMAMALIYIQ"

Coğrafiyaşünas alim Ənvər Əliyev hesab edir ki, Xəzərin geri çəkilməsi müvəqqəti prosesdir və üzə çıxan ərazilərin bölüşdürülməsinə, istifadəyə verilməsinə tələsmək olmaz.

Alimin sözlərinə görə, Xəzər dənizinin səviyyəsinin cəmi 2 metr enməsi nəticəsində təxminən 280 min hektar ərazi sudan azad olur. Lakin bu sahələrin dərhal torpaq kimi qiymətləndirilməsi düzgün deyil. Çünki dənizin dibindən üzə çıxan ərazilərdə torpaq qatının formalaşması üçün uzun müddət tələb olunur.

Ə.Əliyev bildirib ki, əvvəllər də Xəzərin geri çəkilməsi zamanı üzə çıxan ərazilər bölüşdürülüb, həmin sahələrdə tikinti və infrastruktur layihələri həyata keçirilib. Lakin sonradan dənizin yenidən irəliləməsi nəticəsində görülən işlər və çəkilən xərclər ciddi problemlərlə üzləşib:

"Xəzər dənizinin geri çəkilməsi müvəqqəti prosesdir. 30-40 il əvvəl də belə vəziyyət yaranmışdı. Həmin əraziləri bölüşdürdülər, tikintilər apardılar, hətta dəmir yolu çəkdilər. Sonra Xəzər yenidən öz əvvəlki səviyyəsinə qayıtdı. Nəticədə dəmir yolu istifadəsiz qaldı, çəkilən xərclər də batdı. Ona görə də indi eyni səhvi təkrarlamamalıyıq. Heç nəyə toxunmaq lazım deyil. 3-5 il vəziyyət belə olacaq, yenidən Xəzər öz əvvəlki səviyyəsinə qayıdacaq".

Dənizin səviyyəsinin bərpası üçün vaxt lazımdır

Ə.Əliyev hesab edir ki, Xəzərin səviyyəsindəki dəyişiklikləri qiymətləndirərkən təbii dövriliklə yanaşı, iqlim və yağıntı amilləri də nəzərə alınmalıdır. Onun fikrincə, hazırda dünyada, xüsusilə Avropadan İrana qədər geniş ərazilərdə yağıntıların artması Xəzərin su balansına da təsir göstərə bilər.

Alim bildirib ki, Xəzərin cənub hissəsində dərinlik 1025 metrə çatdığı halda, şimal hissəsi xeyli dayazdır:

"Cənub hissəsindən başlayaraq səviyyənin qalxması ehtimalı var. Ona görə də narahat olmağa dəyməz. Xəzər dənizi 371 min kvadratkilometr ərazini əhatə edən nəhəng su hövzəsidir. O, bir gecəyə nə quruyar, nə də dolar. Onun səviyyəsinin enməsi uzun illərdir davam edir, bərpası da xeyli vaxt tələb edəcək".

SAHİLBOYU ƏRAZİLƏRDƏ 3 MİNDƏN ÇOX QANUNSUZ TİKİLİ AŞKARLANIB

Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı hesab edir ki, Xəzər dənizinin geri çəkilməsi nəticəsində üzə çıxan ərazilərin qorunması və istifadəsinə nəzarət gücləndirilməlidir. Onun sözlərinə görə, Prezidentin bu məsələ ilə bağlı imzaladığı sərəncamla Əmlak Məsələləri Dövlət Xidmətinə Xəzəryanı ərazilərin idarə olunması istiqamətində əlavə səlahiyyətlər verilib. Əvvəllər sahilboyu mühafizə zolaqlarının idarə olunması müxtəlif dövlət qurumlarının səlahiyyətləri çərçivəsində həyata keçirilirdisə, yeni yanaşma ilə bu sahədə funksiyaların Əmlak Məsələləri Dövlət Xidmətində cəmləşdirilməsi nəzərdə tutulur.

Ekspert bildirib ki, indiyədək aparılan araşdırmalar zamanı Xəzər dənizinin sahilboyu ərazilərində 3 mindən çox sənədsiz və qanunsuz tikilinin mövcudluğu müəyyən edilib. Onun fikrincə, ilk növbədə sahil zonalarının, xüsusilə dənizin geri çəkilməsi nəticəsində quruyan ərazilərin yenidən zəbt olunmasının qarşısı alınmalıdır:

"Həmin ərazilərin əvvəlki qaydada zəbt olunmasına, qeyri-qanuni yollarla bağlanmasına, əlavə tikililərin inşa edilməsinə və ictimai iaşə obyektlərinin qanunsuz fəaliyyət göstərməsinə yol verilməməlidir. Hesab edirəm ki, bu istiqamətdə Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən ardıcıl və davamlı monitorinqlər aparılacaq".

"YAXIN PERSPEKTİVDƏ BU SAHƏLƏR QORUNUB SAXLANILMALIDIR"

R.Osmanlının fikrincə, sahilboyu ərazilərdə ekoloji standartların qorunması əsas şərt olmalıdır. Ekspert vurğulayıb ki, xarici ölkələrin təcrübəsində də dənizkənarı ərazilər konkret təyinatlar üzrə istifadə edilsə belə, ekoloji normalara və normativ hüquqi aktların tələblərinə ciddi əməl olunur.

Onun sözlərinə görə, sahilboyu ərazilərdə tikinti aparılacaqsa, bu proses qanunvericiliyin tələblərinə uyğun həyata keçirilməli, hotelçilik və turizm kimi fəaliyyət növləri də müvafiq hüquqi çərçivədə təşkil olunmalıdır. Bu ərazilər ayrı-ayrı şəxslərin şəxsi maraqları naminə istifadə edilməməlidir.

Ekspert hesab edir ki, Xəzərin geri çəkilməsi nəticəsində üzə çıxan sahələrin hazırkı mərhələdə iqtisadi dövriyyəyə cəlb edilməsi düzgün yanaşma deyil. Çünki yaxın illərdə dənizin səviyyəsinin yenidən yüksəlməsi ehtimalı mövcuddur:

"2-5 ildən sonra Xəzərin yenidən əvvəlki səviyyəsinə qayıtması ehtimalı var. Belə olan halda həmin ərazilərdə həyata keçirilən layihələrin taleyi necə olacaq? Düşünürəm ki, yaxın perspektivdə bu sahələr qorunub saxlanılmalıdır. Əgər 10-15 ildən sonra aparılan araşdırmalar və təhlillər nəticəsində Xəzərin əvvəlki səviyyəsinə qayıtmayacağı məlum olarsa, o zaman həmin ərazilərin qanunvericiliyə uyğun, ölkə iqtisadiyyatına fayda gətirəcək şəkildə istifadəsi məsələsinə baxmaq olar. Bunun üçün isə ən azı 3-5 il ərzində araşdırmalar aparılmalıdır. Hər bir halda qərarlar qəbul edilərkən qanunvericiliyin tələblərinə əməl olunmalı, ekoloji standartlar qorunmalıdır".



SƏNƏDSİZ EVLƏRLƏ BAĞLI NÖVBƏTİ TƏKLİF



Milli Məclisdə sənədsiz evlərin mərhələli rəsmiləşdirilməsi və bununla bağlı vahid dövlət proqramının hazırlanması təklif edilib.

Sənədsiz evlərin sənədləşdirilməsi məsələsi Milli Məclisdə yenidən gündəmə gətirilib. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanuna dəyişikliklərin müzakirəsi zamanı bu problemin həlli ilə bağlı bəzi təkliflər səsləndirilib.

VAHİD DÖVLƏT PROQRAMI HAZIRLANSIN

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc sənədsiz evlərin mərhələli rəsmiləşdirilməsini və bununla bağlı vahid dövlət proqramının hazırlanmasını təklif edib. Onun sözlərinə görə, Bakı və Abşeronda dövlət qeydiyyatına alınmamış fərdi yaşayış evləri ilə bağlı aparılan araşdırmada sorğuda iştirak edən ailələrin 33,2%-nin sənədsiz evlərdə 20 ildən artıq, 36,8%-nin isə 10 ildən 20 ilə qədər yaşadığı müəyyən edilib:

"Sorğuda iştirak edən ailələrin təxminən 70%-i on ildən çoxdur eyni ünvanda yaşayır. Araşdırmanın nəticələrinə əsasən, sorğuda iştirak edənlərin 27,9%-nin aylıq gəliri 400 manat və ya daha az, 35,6%-nin isə 400-1000 manat arasındadır. Sənədsiz evlərdə yaşayanların əhəmiyyətli hissəsi aztəminatlı və orta gəlirli ailələrdir".

"RƏSMİLƏŞDİRMƏ PROSESİ YENİ QANUNSUZ TİKİNTİLƏRƏ YOL AÇMAMALIDIR"

Komitə sədri qeyd edib ki, evlərin 81%-i birmərtəbəlidir, böyük hissəsinin sahəsi 51-150 kvadratmetrdir: "Evlərin 60%-ni sakinlər özləri tikib, 27%-ni isə satın alıb. Bu səbəbdən bütün evlərə eyni hüquqi yanaşma mümkün deyil. 2023-cü ilədək tikilən sənədsiz evlərin hamısına elektrik, 98%-nə qaz, 88%-nə su xətti çəkilib, 47%-i isə mərkəzləşdirilmiş kanalizasiyaya qoşulub".

Komitə sədri evlərin və torpaqların vahid bazada inventarlaşdırılmasını, qeydiyyata yararlı olanların məhkəməyə müraciət etmədən sadələşdirilmiş qaydada rəsmiləşdirilməsini təklif edib. Təklifə əsasən, mühafizə zonaları və təhlükəli ərazilər amnistiyadan kənarda qalmalı, həmin ərazilərdə yaşayanlara alternativlər təqdim edilməlidir. Ancaq bununla belə, rəsmiləşdirmə prosesi yeni qanunsuz tikintilərə yol açmamalıdır".

Z.Oruc 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunmasını əmlakın dövlət qeydiyyatı sahəsində qərarlar qəbul etmək üçün fürsət hesab edir.

HƏYƏTYANI TORPAQ SAHƏLƏRİNƏ MÜLKİYYƏT HÜQUQU

Qeyd edək ki, Milli Məclis həyətyanı torpaq sahələrinə mülkiyyət hüququnun plan-ölçü sənədi əsasında verilməsini də ilk oxunuşda qəbul edib. Sənəd "Torpaq islahatı haqqında" qanuna uyğun olaraq vətəndaşlara verilmiş, lakin onların mülkiyyət hüququ rəsmiləşdirilməmiş həyətyanı torpaq sahələri ilə bağlı məsələnin tənzimlənməsini nəzərdə tutur. Həmin qanuna əsasən, vətəndaşlara verilmiş həyətyanı torpaqlara ləğv edilmiş Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən mülkiyyət hüququnu təsdiq edən şəhadətnamələr tərtib edilirdi. Bu proses 2006-cı il iyulun 6-na qədər davam edib. Lakin həmin vaxtdan daşınmaz əmlak üzərində hüquqları təsdiq edən sənəd kimi dövlət reyestrindən çıxarışların verilməsinə başlanıldığı üçün şəhadətnamələrin verilməsi prosesi dayandırılıb, bunun əvəzinə Komitə vətəndaşlara torpaq sahəsinin plan və ölçüsü sənədi (plan-ölçü) verməyə başlayıb.

"YALNIZ TEXNİKİ XARAKTERLİ PLAN-ÖLÇÜ VERİLİB"

Nəticədə, vətəndaşların bir qismi 2006-cı il iyulun 6-na qədər şəhadətnamə aldığı halda, digər qismi həmin müddətə qədər müraciət etmədiyindən onlara mülkiyyət hüququnu təsdiq edən şəhadətnamə əvəzinə yalnız texniki xarakterli plan-ölçü verilib. Plan-ölçü hüquqmüəyyənedici sənəd olmadığından, onun əsasında torpaq sahəsi üzərində mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması və bu barədə çıxarışın verilməsi mümkün olmur.

Qanun layihəsinə əsasən, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edildiyi 2015-ci il fevralın 6-na qədər olan dövrdə "Torpaq islahatı haqqında" qanuna uyğun olaraq vətəndaşların mülkiyyətinə verilmiş həyətyanı torpaq sahələrinə dair tərtib edilmiş plan-ölçü sənədi həmin torpaq sahələri üzərində mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması üçün əsas kimi müəyyən edilir. Bununla da eyni hüquqi əsaslarla torpaq sahələri əldə etmiş, lakin müxtəlif sənədlərlə təmin olunmuş vətəndaşlar arasında hüquqi vəziyyətin eyniləşdirilməsi və mülkiyyət hüquqlarının dövlət qeydiyyatı üçün hüquqi əsasın yaradılması təmin edilir.



SOCAR Anlaşma Memorandumu imzalayıb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Fransanın "Schneider Electric" şirkəti arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ilə bağlı Anlaşma Memorandumu imzalanıb. "Report" bu barədə SOCAR-a istinadən xəbər verir.

Məlumata görə, sənədi Azərbaycan şirkətinin vitse-prezidenti Fuad Musayev və Fransa şirkətinin Türkiyə və Mərkəzi Asiya üzrə klaster prezidenti və baş icraçı direktoru Mehmet Özalp imzalayıblar.

Memorandum enerji sektorunda elektrik paylayıcı infrastrukturu, sənayenin avtomatlaşdırılması, rəqəmsallaşma və enerji səmərəliliyi sahələrində tərəfdaşlığın genişləndirilməsini nəzərdə tutur. Əməkdaşlıq çərçivəsində SOCAR aktivlərində elektrik və avtomatlaşdırma sistemlərinin modernləşdirilməsi, enerji istehlakının və avadanlıqların fəaliyyətinin optimallaşdırılması üçün rəqəmsal həllərin tətbiqi, həmçinin seçilmiş obyektlərdə pilot layihələrin qiymətləndirilməsi və həyata keçirilməsi planlaşdırılır.

Eyni zamanda, tərəflər birgə layihələr, texniki xidmət və təcrübə mübadiləsi, məhsulların yerli istehsalı imkanlarının araşdırılması, eləcə də dayanıqlılıq və xalis sıfır emissiya hədəfləri istiqamətində birgə fəaliyyət göstərəcəklər.



Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1565
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

XALÇA SƏNAYESİNDƏ MARAQLI İLMƏLƏR



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Xalça istehsalında kəskin artım qeydə alınıb. İlin ilk doqquz ayında istehsal ötən ilin eyni dövrü ilə müqayisədə 61,1 dəfə yüksəlib. Artımın səbəbləri arasında yeni istehsal gücləri, texnoloji yenilənmə göstərilir.



Xalça istehsalında bu ilin ilk doqquz ayında kəskin artım qeydə alınıb. 2026-cı ilin yanvar-sentyabr aylarında ölkədə 152,7 min kvadratmetr xalça və xalça məmulatları istehsal edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 61,1 dəfə çoxdur. İlin ilk rübündə də istehsal 15,1 min kvadratmetr təşkil edib. Bu göstərici illik müqayisədə 21,6 dəfə artım deməkdir. 2025-ci ilin bütün ili ərzində Azərbaycanda cəmi 3,6 min kvadratmetr xalça istehsal olunmuşdu. Bəs istehsaldakı bu sıçrayışın arxasında hansı amillər dayanır?

"YERLİ İSTEHSAL RƏQABƏTQABİLİYYƏTLİ OLMALIDIR"

İqtisadçı Günay Hüseynovanın sözlərinə görə, xalça istehsalında ötən illə müqayisədə 61,1 dəfə artımın, idxalın isə 2,7 faiz azalmasının müsbət tendensiya kimi qiymətləndirilməsi mümkündür: "Bununla belə, istehsal həcmindəki kəskin artımın səbəblərini müəyyənləşdirmək üçün əvvəlki illərin göstəricilərini də nəzərə almaq lazımdır. Artım aşağı müqayisə bazası, yerli istehsalda müasir texnologiyaların tətbiqi və ya ixracın genişlənməsi ilə əlaqəli ola bilər. Yerli istehsalın rəqabət qabiliyyətli olması üçün məhsulun maya dəyəri xarici istehsalçılarla müqayisədə münasib olmalı və orta qiymət seqmentinin tələblərinə cavab verməlidir. Çin və Türkiyə kimi ölkələrdə müasir istehsal texnologiyalarından istifadə edilməsi yerli istehsalçılar üçün də texnoloji yenilənmənin əhəmiyyətini artırır. Azərbaycan xalçaları, xüsusilə əl işi nümunələri ornament və dizayn xüsusiyyətlərinə görə fərqlənir. Bu üstünlüklər ixrac imkanları yaratsa da, xarici bazarlardakı tələbatı və əsas ixracatçı ölkələrin mövqeyini nəzərə almaq lazımdır. Yeni müəssisələrin fəaliyyətə başlaması, mövcud müəssisələrin istehsal gücünü artırması və texnoloji yenilənmə istehsalın genişlənməsinə səbəb ola bilər. Lakin məhsula kifayət qədər tələb yoxdursa, belə kəskin artımın iqtisadi əsasları sual doğurur".

G.Hüseynova bildirdi ki, yerli istehsalın artması özlüyündə idxaldan asılılığın azalmasına zəmanət vermir: "İdxaldan asılılığın azalması üçün yerli məhsullar qiymət və keyfiyyət baxımından xarici məhsullarla rəqabət aparmalı, eyni zamanda istehlakçıların tələblərinə cavab verməlidir".



Günay Hüseynova

"ƏHƏMİYYƏTLİ DÖNÜŞ YARADA BİLƏR"

İqtisadçının fikrincə, 2026-cı ilin ilk doqquz ayında xalça və digər toxunma döşəmə örtüklərinin ixracının 4,1 dəfə artaraq 252,6 min dollara çatması müsbət göstəricidir: "Bununla belə, idxalın dəyəri ixracın dəyərindən təxminən 58 dəfə çoxdur. Bu fərq yerli istehsalın genişlənməsi ilə yanaşı, xarici bazarlarda mövqelərin gücləndirilməsinin də vacibliyini göstərir. İstehsal artımı real sifarişlərə, satışlara, yeni iş yerlərinə və davamlı ixrac müqavilələrinə əsaslanarsa, bu, xalça sənayesinin inkişafında əhəmiyyətli dönüş yarada bilər. Əsas məsələ istehsal artımının davamlı iqtisadi nəticələrə çevrilməsidir".

Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli isə bildirdi ki, xalça istehsalının artması diqqətçəkən göstəricidir. Lakin bu artımı yalnız xalçaçılıq sənayesində real istehsal genişlənməsi kimi qiymətləndirmək düzgün olmazdı: "Ötən ilin bütün dövründə cəmi 3,6 min kvadratmetr xalça istehsal edildiyi halda, bu ilin doqquz ayında göstəricinin 152,7 min kvadratmetrə çatması kəskin fərq yaradır. Belə sıçrayışın arxasında yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, mövcud müəssisələrin istehsal güclərinin artırılması və ya statistik uçotda dəyişikliklər dayana bilər. Əgər artım real istehsal genişlənməsi ilə bağlıdırsa, bu, yerli xalçaçılıq sənayesi üçün yeni imkanlar deməkdir. Müasir texnologiyaların tətbiqi, toxuculuq müəssisələrinin fəaliyyətinin genişləndirilməsi və ənənəvi xalçaçılıq məktəblərinin sənaye istehsalı ilə əlaqələndirilməsi bu baxımdan əhəmiyyətlidir. Bununla belə, istehsalın artması ilə yanaşı, məhsulun keyfiyyəti, dizaynı, maya dəyəri və bazar tələbatı da nəzərə alınmalıdır".



Akif Nəsirli

KEYFİYYƏT, DİZAYN VƏ QİYMƏT

A.Nəsirlinin sözlərinə görə, yerli istehsalın artması idxaldan asılılığın azalmasına kömək edə bilər: "Bunun üçün Azərbaycan istehsalçıları qiymət və keyfiyyət baxımından xarici məhsullarla rəqabət aparmalıdırlar. Xüsusilə ucuz, kütləvi istehsal olunan xalçalarla rəqabət çətin olsa da, Azərbaycan xalçalarının milli naxışları, ənənəvi toxuculuq texnikası və özünəməxsus dizaynı üstünlük yarada bilər. Eyni zamanda, yerli xammaldan istifadənin genişləndirilməsi və peşəkar kadr hazırlığının gücləndirilməsi də vacibdir. İstehsal artımının ixracın genişlənməsinə çevrilməsi isə ayrıca şərtlər tələb edir. Xarici bazarlara çıxış, beynəlxalq sertifikatlaşdırma, marketinq fəaliyyətinin gücləndirilməsi və etibarlı satış şəbəkələrinin qurulması bu istiqamətdə mühüm əhəmiyyət daşıyır. Azərbaycan xalçalarının xarici alıcılara tanıdılması yalnız məhsulun ənənəvi xüsusiyyətlərini vurğulamaqla məhdudlaşmamalı, eyni zamanda keyfiyyət, dizayn və qiymət baxımından rəqabət üstünlükləri göstərilməlidir".

"UZUNMÜDDƏTLİ TENDENSİYA OLMAYA BİLƏR"

İqtisadçının fikrincə, istehsal artımının davamlılığını qiymətləndirmək üçün qarşıdakı dövrlərin göstəriciləri də izlənilməlidir: "Əgər sıçrayış yalnız bir neçə müəssisənin fəaliyyətə başlaması və ya əvvəlki dövrlərdə uçota alınmayan istehsalın statistikaya daxil edilməsi ilə bağlıdırsa, bu, uzunmüddətli tendensiya olmaya bilər. Əsas məsələ istehsalın davamlılığını təmin etməklə yanaşı, daxili bazarda satış imkanlarını və ixrac potensialını genişləndirməkdir. Bunun üçün müəssisələrin istehsal gücü ilə yanaşı, xammal təminatı, kadr potensialı və bazar tələbatı arasında uyğunluq qorunmalıdır".

GÜCLÜ GÖRÜNƏNLƏRİN SƏSSİZ MÜBARİZƏSİ



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycanda kişilərin qadınlarla müqayisədə daha yüksək ölüm göstəricisinə malik olması diqqət çəkir. Xüsusilə gənclər arasında qeydə alınan fərq bir sıra suallar doğurur. Rəsmi statistikaya görə, 2025-ci ildə 15-29 yaşlı kişilər arasında hər 100 min nəfərə 77,1 ölüm halı düşdüyü halda, qadınlarda bu rəqəm 34,6 olub. Bəs kişilərin ölüm göstəricisinin daha yüksək olmasının səbəbi nədir? Riskli həyat tərzi, sağlamlığa laqeyd münasibət, yoxsa sosial amillər?

Rəsmi statistikaya görə, 2025-ci ildə 15-29 yaşlı kişilər arasında hər 100 min nəfərə 77,1 ölüm halı düşdüyü halda, qadınlarda bu rəqəm 34,6 olub. Bəs kişilərin ölüm göstəricisinin daha yüksək olmasının səbəbi nədir?



ZƏRƏRLİ QİDALANMA, SİQARET, AZ HƏRƏKƏTLİLİK

Tibb elmləri üzrə fəlsəfə doktoru Şəmsiyyə Namazova hesab edir ki, cavan yaşlı kişilər arasında ürək-damar xəstəlikləri və bu xəstəliklərdən ölüm hallarının daha çox müşahidə olunmasının əsas səbəblərindən biri düzgün qidalanmama və zərərli həyat tərzidir: "Digər mühüm risk faktoru siqaret çəkməkdir. Gün ərzində çoxlu siqaret çəkmək, bunun üzərinə stress də əlavə olunanda ürək-damar xəstəliklərinin yaranma riski daha da artır".

Həkim az hərəkətliliyi də ciddi problem kimi qeyd edir: "Bu gün insanların çoxu saatlarla kompüter arxasında oturur, telefonda vaxt keçirir, piyada gəzməyə isə kifayət qədər diqqət ayırmır. Nəticədə fiziki aktivlik azalır, ürək-damar xəstəlikləri üçün risk artır. Təəssüf ki, gənc yaşlarda ürəyinə stent qoyulan gənc kişilərin sayına da çox rast gəlinir".

PSİXOLOJİ GƏRGİNLİK, SOSİAL TƏZYİQLƏR, MADDİ ÇƏTİNLİKLƏR...

Psixoloq Nigar Məmmədovanın sözlərinə görə, kişilərdə gənc yaşlarda ölüm hallarının qadınlara nisbətən çox olmasının səbəbləri yalnız fizioloji amillərlə məhdudlaşmır. Psixoloji gərginlik, sosial təzyiqlər, maddi çətinliklər və emosional dəstəyin çatışmazlığı da kişilərin sağlamlığına ciddi təsir göstərə bilər: "Cəmiyyətdə kişidən güclü olması, çətinliklərə dözməsi, ailəsini dolandırması, maddi problemləri həll etməsi və hər vəziyyətdə çıxış yolu tapması gözlənilir. Bəzən kişilər özləri də bu gözləntilərin altında əzildiklərini etiraf edə bilmirlər. Onlar yaşadıqları gərginliyi, qorxuları, narahatlıqları başqaları ilə bölüşmək əvəzinə, bütün problemləri təkbaşına həll etməyə çalışırlar".

Psixoloq bildirir ki, qadınlar bir çox hallarda yaşadıqları problemləri yaxınları ilə bölüşməyə, emosiyalarını ifadə etməyə və psixoloji dəstək almağa daha açıq olurlar: "Kişilər isə bəzən psixoloqa müraciət etməyi zəiflik kimi qəbul edir, problemlərini öz daxillərində saxlamağa üstünlük verirlər".


Şəmsiyyə Namazova


Nigar Məmmədova

"Kişilərin üzərində sosial və iqtisadi təzyiqlər var"

N.Məmmədova hesab edir ki, kişilərin üzərindəki sosial və iqtisadi təzyiqlər də nəzərə alınmalıdır: "Məsələn, ailənin maddi təminatını həyata keçirmək, işsizlik, gəlirin az olması, borclar, boşanma və gələcəklə bağlı qeyri-müəyyənlik kişidə ciddi psixoloji gərginlik yarada bilər. Son dövrlərdə mərc və qumar oyunlarına maraq da narahatlıq doğuran məsələlərdəndir. Maddi çətinlik yaşayan, qısa müddətdə pul qazanmaq və ya itirdiklərini geri qaytarmaq istəyən şəxslər bu oyunlara üz tuta bilirlər. Əvvəlcə çıxış yolu kimi görünən bu seçim sonradan borcların artmasına, ailə münasibətlərinin pozulmasına, boşanmalara və insanın özünü çıxılmaz vəziyyətdə hiss etməsinə səbəb ola bilər". Psixoloqun fikrincə, digər ciddi məsələ intihar riskidir: "İnsan uzun müddət problemlərlə təkbaşına mübarizə apardıqda, özlərini çıxış yolu olmayan vəziyyətdə hiss etdikdə və ətrafından dəstək görmədikdə psixoloji böhran dərinləşə bilər".

"GÖZLƏNTİLƏRLƏ İMKANLAR ARASINDAKI FƏRQ PROBLEMLƏRƏ SƏBƏB OLUR"

Sosioloq Naib Niftəliyev də kişilərin daha gənc yaşlarda ölüm riskinin yüksək olmasını müxtəlif sosial, iqtisadi və davranış amilləri ilə əlaqələndirir. Onun sözlərinə görə, bu fərqi yalnız fərdi həyat tərzi və şəxsi seçimlərlə izah etmək düzgün deyil. Ailə münasibətləri, əmək bazarındakı vəziyyət, mənzil təminatı, ictimai normalar və cəmiyyətin kişilərdən gözləntiləri də bu məsələdə mühüm rol oynayır: "Bütün dəyişikliklərə və transformasiyalara baxmayaraq, kişilik fenomeni kiçik yaşlardan cəsarətli olmağı, çəkinməməyi, lazım gəldikdə güc nümayiş etdirməyi tələqin edir. Problemləri müstəqil həll etmək bacarığı özlüyündə mənfi xüsusiyyət deyil. Lakin problem ondadır ki, bu keyfiyyətlər bəzən yanlış şəkildə riskli davranışlarla eyniləşdirilir. Burada digər mühüm məqam riskli davranışların hansı sosial şəraitdə normallaşmasıdır. Əgər cəmiyyətdə təhlükəyə məhəl qoymamaq və güc nümayiş etdirmək cəsarət kimi təqdim edilirsə, bu yanaşma insanların davranışlarına da təsir göstərir. Buna görə də kişilərin erkən yaşlarda ölüm riskini yalnız fərdi qərarlarla əlaqələndirmək olmaz. Ailənin, sosial çevrənin və ictimai normaların da bu prosesdə rolu var". Ekspertin diqqət çəkdiyi digər mühüm amil iqtisadi qeyri-müəyyənlik və sosial statusla bağlı təzyiqlərdir: "Xüsusilə 15-29 yaş aralığında gənclər əmək bazarına daxil olmaq, sabit gəlir əldə etmək, müstəqil həyata başlamaq və ailə qarşısında məsuliyyət daşımaq kimi məsələlərlə üzləşirlər. Bəzən mənzil əldə etməkdə çətinlik və sosial yüksəliş imkanlarının məhdudluğu gəncləri psixoloji cəhətdən gərgin vəziyyətə gətirə bilər. Gözləntilərlə mövcud imkanlar arasındakı fərq gənclərdə stress, narahatlıq və gələcəyə inamsızlıq yaradır". Sosioloq yol hərəkəti təhlükəsizliyini və psixi sağlamlığı da kişilərin erkən yaşlarda ölüm riskinə təsir edə biləcək amillər sırasında qeyd edir: "Yol hərəkəti təhlükəsizliyinin gücləndirilməsi, gənclərin məşğulluq və mənzil imkanlarının yaxşılaşdırılması, psixoloji dəstəyə əlçatanlığın artırılması və cəmiyyətdə sağlam kişilik modelinin təşviqi bu istiqamətdə əhəmiyyətli addımlar ola bilər".


Naib Niftəliyev

FOND LƏĞV EDİLİR, GÜZƏŞTLƏR QALIR

Köhnə avtomobillərin istifadədən çıxarılmasını stimullaşdırmaq üçün yaradılan utilizasiya fondu ləğv edilir, struktur dəyişikliklərə gedilir. Bəs bu dəyişiklik utilizasiya proqramının gələcək fəaliyyətinə necə təsir göstərəcək?





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Köhnə və istismara yararsız avtomobillərin dövriyyədən çıxarılması, onların ətraf mühitə mənfi təsirinin azaldılması və təkrar emala cəlb olunması məqsədilə Azərbaycanda nəqliyyat vasitələrinin utilizasiyası proqramı həyata keçirilir. 2024-cü ilin fevralından fəaliyyətə başlayan proqram çərçivəsində avtomobilini utilizasiyaya verən vətəndaşlara birdəfəlik ödəniş və ya yeni yerli istehsal avtomobilinin alınması üçün güzəşt təklif olunur. Bu mexanizmin maliyyələşdirilməsi üçün dövlət büdcəsinin tərkibində ayrıca fond yaradılıb. İndi həmin fondun ləğvi, güzəştlərin və birdəfəlik ödənişlərin isə birbaşa dövlət büdcəsi hesabına maliyyələşdirilməsi təklif edilir. Bəs cəmi iki ildən artıq fəaliyyət göstərən fondun ləğvi hansı zərurətdən yaranıb? Bu dəyişiklik utilizasiya proqramının gələcək fəaliyyətinə necə təsir göstərəcək?

"DƏYİŞİKLİK MEXANİZMİN SƏMƏRƏLİ TƏŞKİLİNİ NƏZƏRDƏ TUTUR"

"Təmiz Şəhər" ASC-dən "Kaspi" qəzetinə verilən məlumata görə, nəqliyyat vasitələrinin utilizasiyası fondunun ləğvi ölkədə məqsədli büdcə fondlarının fəaliyyətinin və büdcə maliyyələşməsi mexanizmlərinin təkmilləşdirilməsi prosesi ilə bağlıdır: "Bu dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 10 sentyabr 2026-cı il tarixli Fərmanından irəli gəlir. Nəzərdə tutulan dəyişikliklər mövcud mexanizmlərin ləğvini deyil, onların daha səmərəli təşkilini və təkmilləşdirilməsini nəzərdə tutur. Nəqliyyat vasitələrinin utilizasiyası proqramının maliyyələşdirilməsində, güzəştlərin və birdəfəlik ödənişlərin verilməsində heç bir dayanma olmayacaq. Proqram fəaliyyətini davam etdirəcək, proseslər isə yeni idarəetmə mexanizminə uyğun şəkildə həyata keçiriləcək".

"HƏR BEŞ AVTOMOBİLDƏN BİRİ STANDARTLARA CAVAB VERMİR"

Qurumdan bildirilir ki, ölkəmizdə hər il istismarda olan çoxsaylı nəqliyyat vasitəsi köhnəlmə və yol-nəqliyyat hadisələri nəticəsində istifadəyə yararsız hala düşür.

Statistik göstəricilərə əsasən, hazırda respublikada hər beş avtomobildən biri ekoloji və təhlükəsizlik standartlarına cavab vermir: "Bunu nəzərə alaraq, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"na əsasən, Azərbaycanda nəqliyyat vasitələrinin utilizasiyası proqramı hazırlanıb, həmçinin proqramın tətbiqi ilə əlaqədar ümumilikdə 10-dan çox qanunvericilik aktına dəyişiklik və əlavələr edilib. "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ötən müddət ərzində "Təmiz Şəhər" ASC tərəfindən utilizatorların reyestrdə qeydiyyata alınması üçün tədbirlər görülüb. Utilizator fəaliyyəti üzrə nəzərdə tutulan tələblərə cavab verən dörd utilizator (Bakıda, Abşeron rayonunda, Sumqayıtda və Gəncədə) reyestrdə qeydiyyata alınaraq istismar müddəti başa çatan, eləcə də istifadəyə yararsız nəqliyyat vasitələrinin qəbuluna başlayıb. Nəqliyyat vasitələrinin utilizasiyaya təqdim olunmasını asanlaşdırmaq məqsədilə elektron portal istifadəyə verilib. Mövcud tələblərə əsasən, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilən qaydada əvvəlcə nəqliyyat vasitəsi dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. Daha sonra zəruri məlumatlar istifadəyə verilmiş www.nvu.gov.az elektron portalına daxil edilərək, ərizəçiyə göndərilən elektron məlumat əsasında nəqliyyat vasitəsi qəbul məntəqəsinə təhvil verilməlidir. Nəqliyyat vasitəsi utilizasiyaya təqdim edildikdən sonra onu utilizatora təhvil verən şəxsə təsdiqedici sənəd təqdim edilir. Həmin sənəd əsasında birdəfəlik ödəniş və ya yerli istehsal olan yeni nəqliyyat vasitəsinin alınması üçün güzəşt əldə etmək mümkündür".

Foto: Mahir Rüstəmov /Global Media Group

"42 431 nəqliyyat vasitəsi utilizasiyaya verilib"

"Təmiz Şəhər" ASC-nin məlumatına görə, qurumun operatorluğu ilə həyata keçirilən proses çərçivəsində 2024-cü ilin oktyabr ayından indiyədək 42 431 nəqliyyat vasitəsi utilizasiyaya verilib və bu rəqəm hər gün artmaqdadır: "Nəqliyyat vasitələrinin utilizasiyası proqramı çərçivəsində 2 225 ədəd yerli istehsal olan yeni nəqliyyat vasitəsinin güzəştlə satışı həyata keçirilib, 1,3 milyon manatdan çox birdəfəlik ödəniş isə ərizəçilərin bank hesablarına köçürülüb. Nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi könüllülük prinsipi əsasında aparılır və məcburi xarakter daşımır".

"MƏQSƏD MALİYYƏ NƏZARƏTİNİ GÜCLƏNDİRMƏKDİR"

Utilizasiya fondunun ləğvinin büdcə vəsaitlərinin idarə olunmasına, eləcə də utilizasiya proqramının gələcək maliyyələşdirilməsinə mümkün təsirlərindən danışan maliyyəçi-ekspert Namiq Hüseynov bildirir ki, fond Prezident İlham Əliyevin bu il sentyabrın 10-da imzaladığı "Dövlət büdcəsinin tərkibində yaradılmış məqsədli büdcə fondlarının və dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərindən istifadəyə dair əlavə tədbirlər haqqında" Fərmana əsasən ləğv olunur: "Söhbət təkcə utilizasiya fondundan deyil, ümumilikdə 8 fonddan gedir. Ləğvetmə ilə əlaqədar bir sıra qanunlarda dəyişikliklər edilir və "Tullantılar haqqında" Qanuna dəyişiklik də bundan irəli gəlir. Məqsəd utilizasiya ilə bağlı əldə olunan gəlirlərə nəzarətin gücləndirilməsi, utilizasiya haqlarının birbaşa dövlət büdcəsinə daxil olması və bu istiqamətdə xərclərin də birbaşa büdcədən, mərkəzləşdirilmiş qaydada həyata keçirilməsidir. Bu, Azərbaycanda dövlət maliyyəsinin idarə edilməsi ilə bağlı son illər həyata keçirilən islahatların tərkib hissəsidir".

"Səlahiyyətlər "əl dəyişir"

Ekspert vurğulayır ki, nəqliyyat vasitələrinin utilizasiyası fondunun ləğvi dövlət proqramının həyata keçirilməsinə heç bir formada təsir etməyəcək: "Sadəcə, utilizasiya ilə bağlı səlahiyyətlər, belə demək mümkünsə, "əl dəyişir". İndiyədək utilizasiya fondu vasitəçi qurum kimi çıxış edirdi. Bundan sonra belə vasitəçilik olmayacaq, utilizasiya prosesi çərçivəsində həm daxilolmalar, həm də xaricolmalar birbaşa büdcə səviyyəsində icra olunacaq".



Namiq Hüseynov

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

AVROPANIN YAŞIL PAYTAXTI















Lyublyana ölçüsünə görə "Cib mədəniyyət mərkəzi" adlandırılır. Burada əzəmətli Roma arenası və ya romantik fransız qülləsi yoxdur, lakin Alp dağlarının heyrətamiz mənzərələri hər kəsi məftun edir.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Lyublyana Avropa həftəsonu üçün mükəmməl istiqamət sayılır: tarixi memarlıq, orta əsr qalası, ləzzətli yeməklər, daş döşənmiş küçələri olan köhnə şəhər, mənzərəli körpülər, çay sahilləri və rahat həyat tempi...

Buraya gələndən sonra anlayırsan ki, Sloveniyanın bu yaşıl paytaxtı heyrətamiz təbii gözəlliyinə görə mütləq səyahətə dəyər. Təsadüfi deyil, 2014-cü ildə Lyublyana nüfuzlu "Avropa Yaşıl Paytaxtı 2016" titulunu alıb. 5300 illik tarixi olan dünyanın ən qədim çarxı Lyublyanada kəşf edilib.

Ancaq Lyublyana hər şeyə malik olmasına baxmayaraq, turistlərin diqqətindən yayınan Avropa paytaxtlarından biridir.

"CİB MƏDƏNİYYƏT MƏRKƏZİ"

Lyublyana - kompakt və çox canlı şəhərdir. Paytaxt Avropanın ən ekoloji cəhətdən təmiz 30 şəhəri arasında yer alır. Bu da ilin istənilən vaxtında şəhərin küçə və meydanlarında gəzməyi cəlbedici edir.

Şəhər rahat Mərkəzi Avropa atmosferini müasir tələbə həyatı və bol yaşıl məkanlarla birləşdirir. Ölçüsünə görə "Cib mədəniyyət mərkəzi" adlandırılıb, cəmi 163 kvadrat kilometr ərazini əhatə edir. Burada əzəmətli Roma arenası və ya romantik fransız qülləsi yoxdur, lakin Alp dağlarının heyrətamiz mənzərələri hər kəsi məftun edir.

Lyublyana çayı şəhərin ortasından axır və tarixi mərkəzi iki yerə bölür. Çay üzərindəki Üçlü Körpü bütün turistlərin marağına səbəb olur. Bu körpülərin hər birinin öz hekayəsi var. Memar Joze Plecnik tərəfindən dizayn edilmiş körpü və şəhərin simvolları olan dörd bürünc əjdaha ilə qorunan əfsanəvi İlan Körpüsü turistlərin maraqla seyr etdiyi yerlərdir. Mərkəz tarixi binalarını yaxşı qoruyub saxlayıb. Kafelər Lyublyana çayının sahilində yerləşir, küçə musiqiçiləri axşamlar çıxış edir və yerli sakinlər velosiped yollarından, piyada zonalarından fəal şəkildə istifadə edirlər. Şəhərdə metro və ya tramvay olmasa da, müasir və ekoloji cəhətdən təmiz şəhər avtobusları əsas nəqliyyat ehtiyaclarını ödəyir. Transferlərlə 90 dəqiqəlik tək bir gediş adətən təxminən 1.30 avroya başa gəlir.

Bələdçimiz Tin Hrastnik məlumat verir ki, şəhər genişləndikcə əhalisi artıb və çay üzərindən daha böyük bir keçid lazım olub: "Hakimiyyət orqanları köhnə körpünü dəyişdirməmək qərarına gəldi və 1930-cu illərin əvvəllərində daha iki körpü əlavə edildi. Nəticədə, körpü Üçlü Körpü kimi tanındı və hətta UNESCO-nun Dünya İrsi Siyahısına daxil edildi".

Körpüdən adlayıb məşhur Mərkəzi Bazarla tanış oluruq. Burada bir çox ləzzətli yerli məhsullar - pendirlər, kolbasalar, bal və meyvələr satılır.

Şəhərin ən yaxşı mənzərəsi Lyublyana qalasındandır ki, bura yalnız funikulyorla çatmaq mümkündür. 10 avro ödəməklə bu qüdrətli orta əsr qalasını əhatə edən panoramik mənzərəni seyr edən turistlərə qarışırıq.

Paytaxtın Köhnə şəhəri sakit atmosferi ilə valeh edir. Burada Habsburq dövrünə aid evlər, daş döşənmiş küçələr və rahat kafelər var: "Sloveniya paytaxtının digər bir üstünlüyü onun yüksək təhlükəsizliyidir. Kiçik oğurluq nadir hallarda baş verir və zorakı cinayətlər demək olar ki, yoxdur. Lyublyana Səyahət Təhlükəsizliyi İndeksində 87 bal toplayıb".

Lyublyananın yemək mədəniyyəti müxtəlifdir. Müşahidə edirik ki, yerli sakinlər orijinal Sloveniya mətbəxini təklif edən ənənəvi meyxanalarda yeməkdən zövq alırlar. Şəhər mərkəzindəki çoxsaylı restoranlar yerli və beynəlxalq səviyyədə hər zövqə uyğun yeməklər təklif edir.

Slovenlər müstəqillikləri və unikal mədəniyyətləri ilə fəxr edirlər. İctimai nəqliyyatda yüksək səsli mobil telefon danışıqlarını sevmirlər.

BLED NAĞILI

Sloveniyanı tanımaq üçün təkcə paytaxt Lyublyananın küçələrini gəzmək kifayət deyil. Ölkənin əsl təbii gözəlliklərini, tarixi zənginliyini və turizm potensialını görmək üçün paytaxtdan 55 kilometr məsafədə yerləşən Bled gölü və onun sahilindəki qədim Bled qalasını mütləq görmək lazımdır. Paytaxt Lyublyanadan Bledə birgünlük səfərlər təklif olunur. Sloveniyanın əsl nağıllarından biri məhz Bleddə başlayır.

Julian Alp dağlarının əhatəsində yerləşən gölün sakit su səthi, ətrafdakı yaşıl meşələr, dağ mənzərələri və gölün ortasındakı kiçik ada buranı Avropanın ən fərqli turizm məkanlarından birinə çevirir.

Bledin ən diqqətçəkən xüsusiyyəti gölün ortasında yerləşən adadır. Adada ucalan Müqəddəs Məryəm kilsəsi Sloveniyanın ən tanınan memarlıq və dini abidələrindəndir. Turistlər adaya ənənəvi taxta qayıqlarla - pletnalarla gedirlər. Ada ilə bağlı maraqlı inanclardan biri də kilsənin zəngi ilə əlaqədardır. Rəvayətə görə, zəngi çalan insanın arzusu həyata keçir. Kilsəyə aparan 99 daş pilləni qalxmaq isə bu kiçik adanın ziyarətini daha da yaddaqalan edir. Xüsusən yay aylarında burada turist əlindən tərpənmək olmur. Dünyanın hər yerindən buraya gecələməyə gəlirlər. Bled gölü ətrafında yerləşən hotellər sırasında keçmiş Yuqoslaviya lideri İosip Broz Titonun yay iqamətgahı da yer alır.

MİNİLLİK TARİXƏ MALİK QALA

Bled gölünün mənzərəsini tamamlayan digər möhtəşəm tikili isə hündür qayalıq üzərində yerləşən Bled qalasıdır. Bu, təkcə Sloveniyanın deyil, Avropanın ən qədim qalalarından biri hesab olunur. Onun tarixi 1004-cü ilə gedib çıxır. Bled qalası min ildən artıqdır ki, bu ərazinin tarixi yaddaşını özündə yaşadır. Əsrlər ərzində müxtəlif hakimiyyətlərin idarəçiliyində olmuş qala bu gün muzey və turizm kompleksi kimi fəaliyyət göstərir. Burada orta əsrlərin memarlıq izləri, tarixi ekspozisiyalar və qədim həyat tərzini əks etdirən interyerlər qorunub saxlanılır. Qədim çap emalatxanası və şərab zirzəmisi də ziyarətçilərin marağına səbəb olur.

Lakin qalanın ən böyük cazibəsi, şübhəsiz ki, onun müşahidə meydançasından açılan mənzərədir. Buradan Bled gölünü, adanı, kilsəni və uzaqda ucalan Alp zirvələrini bir panoramada seyr etmək mümkündür. Bu mənzərə həm turistlərin, həm də foto həvəskarlarının diqqətini çəkir.



“TAMAŞAÇINI TEATRA QAYTARMAQ ÜÇÜN İLK NÖVBƏDƏ TEATRIN ÖZÜ DƏYİŞMƏLİDİR”

TEATR İNSANIN VİCDANINA TOXUNMAQ SƏNƏTİDİR

Əlisahib Cəlili: “Sənətdə paytaxt və bölgə anlayışları arasında sərhəd qoymağın tərəfdarı deyiləm. Çünki istedadın da, yaradıcılığın da konkret coğrafiyası yoxdur”.



NİSƏ RAFİQQIZI

Gənc və istedadlı rejissor Əlisahib Cəlili sənətə öz baxışı, yaradıcılıq axtarışları və səhnəyə gətirdiyi fərqli yanaşma ilə seçilən rejissorlardandır. Onunla fəaliyyət göstərdiyi Mingəçevir Dram Teatrında görüşdük. Hazırda Yusif Səmədoğlunun “Qətl günü” romanının motivləri əsasında “Ölümünüz xeyir” tamaşasını hazırlayır. Tamaşanın adı kimi mövzusu da ağırdır. Çünki söhbət ölümdən yox, ölümsüz qalan xeyirdən gedir...

● Sizi tanımayanlar üçün kimdir Əlisahib Cəlilov?

● Əlisahib Cəlilov teatrı sadəcə peşə deyil, düşüncə və həyat tərzi hesab edən bir insandır. Özünü hələ də axtaran, öyrənən, səhvlərindən nəticə çıxaran gənc rejissordur. Mənim üçün teatr yalnız tamaşa hazırlamaq deyil. Teatr insanın vicdanına toxunmaq, onu düşündürmək, bəzən narahat etmək, bəzən də öz həqiqətləri ilə üz-üzə qoymaq sənətidir.

“MƏNİM ÜÇÜN TEATR DÜŞÜNCƏ VƏ YARADICILIQ AZADLIĞIDIR”

● Bakıda qalıb karyera qurmaq varkən, niyə məhz Mingəçevir? Bu risk idi, yoxsa sevda?

● Mənim üçün əsas məsələ ilk gün hansı hissləri keçirməyim deyil, buradan ayrılarkən səhnədə hansı yaradıcı iz qoyacağımdır. Mingəçevir Dövlət Dram Teatrına Mədəniyyət Nazirliyinin “Öyrədərək öyrənirəm” layihəsi çərçivəsində gəlmişəm. Bu, fərqli yaradıcı mühitlə tanış olmaq, aktyorlarla qarşılıqlı təcrübə mübadiləsi aparmaq və yeni səhnə axtarışlarına çıxmaq baxımından maraqlı təcrübədir. Ümumiyyətlə, sənətdə paytaxt və bölgə anlayışları arasında sərhəd qoymağın tərəfdarı deyiləm. Çünki istedadın da, yaradıcılığın da konkret coğrafiyası yoxdur. Risk idi, yoxsa sevdaya gəlincə isə, düşünürəm ki, sənətdə sevgi olmayan yerdə riskin mənası yoxdur. Mənim üçün teatr bir məkan deyil. Düşüncə və yaradıcılıq azadlığıdır. Hazırda Yusif Səmədoğlunun “Qətl günü” romanının motivləri əsasında “Ölümünüz xeyir” tamaşasını hazırlayıram. Tamaşa magik realizm və fəlsəfi qrotesk elementləri üzərində qurulub. Əsas mövzumuz insanın mənəvi ölümü, vicdanın susması, qorxu və itaət məsələləridir. İstəyirəm ki, bu tamaşa yalnız izlənilməsin, həm də tamaşaçını düşündürsün. Yaddaşında müəyyən iz buraxsın.

“TAMAŞAÇI TEATRA YALNIZ ALQIŞLAMAQ ÜÇÜN GƏLMƏMƏLİDİR”

● Deyirlər teatr ölüb. Siz necə fikirləşirsiniz, teatr ölüb, yoxsa biz tamaşaçını itirmişik?

● Teatr ölsəydi, bu gün onun ölüb-ölmədiyini müzakirə etməzdik. Sadəcə, bəzən teatr zamanla ayaqlaşmaqda çətinlik çəkir. Biz tamaşaçını itirdiyimizi deyirik, amma özümüzə bir sual vermirik: tamaşaçını itirmişik, yoxsa onu cəlb edə biləcək teatrı yarada bilmirik? Məncə, tamaşaçını teatra qaytarmaq üçün ilk növbədə teatrın özü dəyişməlidir. Bu, klassikadan imtina etmək, yaxud səhnəni ucuz əyləncə məkanına çevirmək demək deyil. Əksinə, teatr öz bədii səviyyəsini qorumaqla müasir insanın düşüncəsinə, problemlərinə və mənəvi dünyasına toxunmağı bacarmalıdır. İnsanları telefondan zorla ayırmaq mümkün deyil. Amma elə bir tamaşa qoymaq olar ki, insan iki saat ərzində telefonuna baxmağı unutsun. Tamaşaçı teatra yalnız alqışlamaq üçün gəlməməlidir. O, bəzən narahat olmalı, düşünməli, özünü sorğulamalıdır. Teatr ölməyib. Sadəcə, bəzən biz onun yaşadığını sübut etmək üçün cəsarətli ola bilmirik.

● Tamaşaçını itirməyin günahı kimdədir?

● Əvvəlcə bir həqiqəti qəbul etməliyik: Azərbaycan cəmiyyəti ümumilikdə teatra kütləvi şəkildə üz tutan cəmiyyət deyil. Xalqımızın əksər nümayəndələri musiqiyə, toya, şifahi söz sənətinə, məclis mədəniyyətinə daha çox bağlıdır. Teatr isə müntəzəm tamaşaçı vərdişi, estetik maraq, düşünmək və sənətlə davamlı ünsiyyət tələb edir. Bu vərdişin formalaşması üçün isə təkcə teatrın mövcudluğu kifayət etmir, ailədən, məktəbdən başlayan sənət tərbiyəsi lazımdır. Məktəb uşağa teatr sevgisi aşılamalı, televiziya sənətə maraq yaratmalı, teatr isə tamaşaçıya yeni düşüncə və estetik təcrübə təqdim etməlidir. Təəssüf ki, bu üç istiqamət arasında arzuladığımız bağlılıq həmişə qurulmur.

“ƏYALƏT TƏFƏKKÜRLÜ TEATR ANLAYIŞINI QƏBUL ETMİRƏM”

● Bəzi gənc aktyorlar və rejissorlar əyalət teatrına getməkdən boyun qaçırırlar. Çünki ev, maaş problemi var... Belə bir durumda aktyoru Mingəçevir teatrında saxlayan nədir?

● Əlbəttə, sosial və maddi məsələlər yaradıcı insanın seçimlərinə təsir göstərir. Bunu inkar etmək olmaz. Aktyorun və rejissorun normal yaşayış şəraitinə malik olması yaradıcılıq prosesinin də keyfiyyətinə təsir edir. Amma bu, təkcə Mingəçevir teatrına aid məsələ deyil. Ümumilikdə region teatrlarının inkişafı üçün həm sosial təminat, həm də yaradıcılıq imkanları vacibdir...



“Böyük dramaturgiyaya məsuliyyətsiz yanaşmaq istəmirəm”

● Bakıdan sonra region teatrında rejissorluq etmək fəaliyyətinizə və bədii azadlığınıza necə təsir edir?

● Mənim üçün əyalət teatrı anlayışı var, amma əyalət təfəkkürlü teatr anlayışını qəbul etmirəm. Çünki sənətin coğrafiyası ola bilər, düşüncəsinin isə sərhədi olmamalıdır.

● Bölgələrdə teatra gələn tamaşaçı ilə Bakı tamaşaçısı arasında hansı mental və estetik fərqləri hiss edirsiniz?

● Mən tamaşaçını Bakı və bölgə tamaşaçısı olaraq kəskin şəkildə ayırmağın tərəfdarı deyiləm. Çünki insanın sənəti qavramaq qabiliyyətini onun yaşadığı coğrafiya müəyyən etmir. Amma müəyyən mental və estetik fərqlərin olduğunu da inkar etmək olmaz. Bakı tamaşaçısını müxtəlif teatr üslubları və eksperimental səhnə formaları ilə qarşılamaq imkanları daha genişdir. Bölgələrdə isə tamaşaçı çox zaman daha aydın hadisəyə, səmimi aktyor oyununa və emosional təsirə üstünlük verir. Əsas məsələ rejissorun öz fikrini hansı səhnə dili ilə çatdırmasıdır. Bir həqiqəti də qəbul etməliyik: biz cəmiyyət olaraq hələ teatrı gündəlik mənəvi ehtiyac səviyyəsinə qaldıra bilməmişik. Teatra getmək bir çox insan üçün həyat tərzinə çevrilməyib. Bunun səbəbini yalnız tamaşaçıda axtarmaq düzgün deyil. Teatr özü də tamaşaçı ilə münasibətlərini yenidən düşünməli, onu təəccübləndirməyi, düşündürməyi və yenidən teatra qaytarmağı bacarmalıdır.

● Səhnələşdirmək istədiyiniz elə əsər var ki, hələlik ona toxunmağa cəsarət etmirsiniz və ya doğru zamanı gözləyirsiniz?

● Əlbəttə, hər rejissorun yaradıcı yaddaşında səhnəyə gətirmək istədiyi əsərlər var. Amma düşünürəm ki, bəzi əsərlərə yalnız istək kifayət etmir. Onların öz zamanı, yaradıcı mühiti və hazırlıq mərhələsi olmalıdır. Mən əsərdən qorxmaq anlayışını qəbul etmirəm. Sadəcə, böyük dramaturgiyaya məsuliyyətsiz yanaşmaq istəmirəm.

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
28 NOYABR ŞƏNBƏ 2026
www.kaspi.az

“Turan” komandası vaxtilə “Azərreyl” və “Rabitə”nin daşıdığı estafeti uğurla təhvil alıb. Klub ölkəmizi CEV Çempionlar Liqasında təmsil edir.

10 İLLİK HƏSRƏTİN SONU



Azərbaycan voleybolunda durğunluq dövrü artıq başa çatıb. 2010-cu illərin ortalarından baş qaldıran çətinliklər geridə qalmaqdadır və Azərbaycan voleybolu yeni inkişaf mərhələsindən keçir. Milli çempionatlarda komandaların sayı artır, iştirakçıların coğrafiyası genişlənir, rəqabət güclənir. Bu isə yekunda nəticələrdə özünü göstərir. Xüsusilə, “Turan” komandası vaxtilə “Azərreyl” və “Rabitə”nin daşıdığı estafeti uğurla təhvil alıb. Bu yazıda Tovuz təmsilçisinin qısa, amma uğurlu yolundan bəhs edəcəyik.

“Turan” Voleybol Klubunun tarixi elə də böyük deyil. Komandanın əsası 2025-ci ilin sentyabrında qoyulub. Yarandığı vaxtdan Yüksək Liqada çıxış etməyə başlayan Tovuz təmsilçisi hələ heç yaşını tamamlamamış ilk böyük uğurunu əldə etməklə ölkə daxilindəki əsas hədəfinə çatdı. Mövsümün son oyununda “DH Volley”lə üz-üzə gələn “Turan” 3:1 hesablı qələbə ilə debüt ilində Azərbaycan çempionu oldu. Beləliklə, klub ölkəmizi CEV Çempionlar Liqasında təmsil etmək hüququ qazandı.

Çempionlar Liqasında əsas mərhələ

Daxili yarışlarda əldə edilən nəticə ilə kifayətlənmək niyyətində olmayan “Turan” üçün növbəti hədəf qitəmiqyaslı yarışlar idi. İlk dəfə Çempionlar Liqasında yarışacaq komanda turnirə ciddi hazırlıq keçdi. Tovuzlular İtaliya, Yunanıstan və Türkiyədə təlim-məşq toplanışında oldular. Müxtəlif rəqiblərə qarşı yoxlama qarşılaşmaları baş məşqçi Ziya Rəcəbzadəyə komandasının zəif və güclü tərəflərini daha dərindən analiz etmək fürsəti yaratdı. Oktyabrda Tovuzda ilk dəfə Çempionlar Liqası oyunu keçirildi. İkinci təsnifat mərhələsində Xorvatiya təmsilçisi “Mladost”a rəqib olan Azərbaycan klubu doğma publika qarşısında 3:0 hesablı qələbə ilə iddiasını ortaya qoydu. Səfərdə 3:2 üstün olan “Turan” əsas mərhələnin bir addımlığına gəldi. Burada rəqib daha güclü hesab olunan “Maritsa” idi. Lakin təmsilçimiz bolqarları birnəfəsə keçməyi bacardı. İki oyunda rəqibinə bir set belə verməyən “Turan” Tovuzda, doğma azarkeşləri qarşısında qazandığı qələbə ilə onlara əsl bayram yaşatdı. Beləliklə, yarandığı tarixdən bir neçə ay sonra ölkə çempionu olan kollektiv ardınca qitənin ən güclülərinin yarışdığı Çempionlar Liqasında əsas mərhələyə yüksəldi.

Bu, qadın voleybolumuzda 10 illik həsrətin başa çatması anlamına gəlir. Sonuncu dəfə 2016/17 mövsümündə “Azərreyl” və “Rabitə”nin davamçısı olan “Telekom” sözügedən turnirdə iştirak etmişdi.

Rəqiblər “Savino Del Bene Skandiççi”, “Eczaçıbaşı”, “Tent Obrenovats” oldu

Əslində, belə bir turnirin əsas mərhələsində hansısa daha münasib rəqiblərin olduğunu demək yersiz olardı. Xüsusilə, debüt edən kollektiv üçün. Lakin qrup mərhələsindəki komandalara baxdıqda “Turan”ın püşkdə bəxtinin gətirmədiyini demək olar. Komandamız D qrupunda İtaliyanın “Savino Del Bene Skandiççi”, Türkiyənin “Eczaçıbaşı” və Serbiyanın “Tent Obrenovats” kollektivləri ilə yarışır. Rəqiblərin səviyyəsini anlamaq üçün təkcə bir faktı qeyd etmək kifayətdir ki, italyanlar ötən mövsüm yarımfinal oynayıblar və yekunda 4-cü yeri tutublar. Türkiyə təmsilçisi isə məhz “Savino Del Bene Skandiççi”ni məğlub edərək finala qədər irəliləməyi bacarıb. “Eczaçıbaşı” yalnız həlledici qarşılaşmada digər Türkiyə təmsilçisi “Vakıfbank”a uduzub. Beləliklə, Avropanın 4 ən güclü voleybol komandasından ikisi “Turan”ın qrup rəqibləridir. “Tent Obrenovats” müəyyən qədər münasib hesab edilsə də, onlar da qitənin əsas voleybol ölkələrindən olan Serbiyanın son çempionudurlar. Çətin qrupa düşməsinə baxmayaraq, “Turan”ın asan təslim olmayacağını əminliklə söyləmək olar. Çempionlar Liqasına ciddi hazırlaşan komandanın heyəti də xeyli güclənib. Ötən mövsüm çempionluq qazanan kollektivin əsas simalarını qoruyub saxlayan Tovuz təmsilçisi heyətinə bir sıra tanınmış voleybolçuları da cəlb edib. Ayşən Abdüləzimova və Yelizaveta Ruban kimi yerli oyunçuların yanında yaponiyalı Minami Yoşioka, Çin millisinin tanınmış simalarından Yanq Hanyu Şandonq, Cənubi Koreya voleybolunun ulduzu İ Ceyonq, kubalı Vilma Salas, Yilian Kleqer və Kenia Karkases kimi təcrübəli oyunçular da yer alıblar.

DEBÜT BAŞ TUTDU

“Turan” artıq Çempionlar Liqasının əsas mərhələsində debüt edib. Komanda ilk oyununu İtaliyada “Savino Del Bene Skandiççi”yə qarşı keçirib. Florensiya şəhərində keçirilən görüş meydan sahiblərinin 3:1 hesablı qələbəsi ilə yekunlaşıb. İlk iki setdə məğlub olan “Turan” üçüncü setdə qalib gələrək hesab arasındakı fərqi azaltsa da, dördüncü setdə rəqibinə uduzub.

Azərbaycan təmsilçisi qrup mərhələsində növbəti oyununu dekabrın 2-də səfərdə Türkiyənin “Eczacıbaşı” komandasına qarşı keçirəcək.

İlk oyunda məğlubiyyətə baxmayaraq, təəssüflənməyə dəyməz. İndiki məqamda tovuzlular üçün əsas hədəf daha çox təcrübə qazanmaq, səhvləri təhlil etmək və gələcək üçün daha möhkəm kollektiv olmaqdır.